10 mart 2023 №18-19 (1988)

www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## “Yerlə göy arasında”

### Azərbaycan-Latviya incəsənət sərgisi

Martın 9-da Heydər Əliyev Mərkəzində “Yerlə göy arasında” Azərbaycan-Latviya birgə incəsənət sərgisinin açılışı olub.



Tədbirdə Azərbaycanda rəsmi səfərdə olan Latviya Prezidenti Egils Levits, Azərbaycan Prezidentinin köməkçisi Anar Ələkbərov, digər rəsmi şəxslər iştirak ediblər.

Latviyanın Azərbaycandakı Səfirliyi ilə birgə təşkil olunan sərgi Türk dünyasının mütəfəkkir şairi Mövlana Cəlaləddin Ruminin poeziyasını əhatə edir. XIII əsrdə yaşayıb-yaratmış Ruminin ideyaları mənəvi yüksəliş və kamilliyə çatmağa həsr olunub. Sərgidə latviyalı rəssam İeva Krumina və məşhur fotoqraf Reza Deqatinin əsərləri nümayiş olunur.

Açılış mərasimində çıxış edən Latviyanın Azərbaycandakı müvəqqəti işlər vəkili Viya Buşa bildirib ki, sərgidə xalqlarımız arasında olan oxşarlıq nümayiş olunur. Diplomat diqqətə çatdırıb ki, Latviya səfirliyi ölkələrimiz arasında mədəniyyət sahəsində münasibətlərə xüsusi önəm verir. Bu cür tədbirlərin keçirilməsi sayəsində Latviyanın təsviri incəsənəti Azərbaycanda təbliğ edilir.

Latviya Prezidenti Egils Levits müxtəlif xalqları, mədəniyyətləri bir araya gətirmək üçün sərginin adının düzgün seçildiyini deyib. O bildirib ki, bu gün heç kim yeknəsəq, qlobal mədəni şəraitdə yaşamaq istəməz. Hər bir xalqın özünəməxsus mədəniyyəti qorunub saxlanılmalıdır. Milli mədəniyyətlər ənənələrə söykənir, lakin bu ənənələr inkişaf etdirilməlidir. Milli mədəniyyətlər digər mədəniyyətlərin irəli sürdüyü ideyalara da açıq olmalıdır.

Sərgini ölkələrimiz arasındakı körpülərin ən bariz nümunəsi adlandıran Latviya Prezidenti tədbirin təşkilinə görə Heydər Əliyev Mərkəzinə minnətdarlığını bildirib. Qeyd edib ki, birgə mədəni tədbirləri keçirməklə biz bir-birimizi daha da yaxın edirik.

Sərgidə əsərləri nümayiş olunan İeva Krumina möhtəşəm bir məkanda əsərlərinin nümayiş olunmasından məmnunluğunu ifadə edib. Öz əsərləri barədə məlumat verən rəssam diqqətə çatdırıb ki, Şərq üslubunda miniatür ənənələrini mümkün qədər yüksək səviyyədə qoruyub saxlayaraq 43 illüstrasiya yaradıb. “Hər iki xalqın düşüncələrində bir çox oxşarlıqlar var. İncəsənət bizi bir-birimizə yaxınlaşdırır. Bu o deməkdir ki, bizim bölüşdüyümüz ideyalar bir-birimiz tərəfindən qavranıla bilər”, – deyə o vurğulayıb.

Qeyd edək ki, İeva Krumina Latviya Rəssamlıq Akademiyasında Tekstil şöbəsinin müdiridir. Onun sənət əsərləri insanlara dünyanı sevgi sapları ilə təmir etmək mesajını çatdırır.

Heydər Əliyev Mərkəzindəki sərgi aprelin 3-dək davam edəcək.

## Dünyanın çağırış və ümidləri Nizami irsi işığında

### “Nizaminin müdrikliyi Azərbaycan xalqının müdrikliyini təcəssüm etdirir”

Mərkəzin adını daşıdığı dahi Azərbaycan şairi Nizami Gəncəvinin xatirəsinə və irsinə olan dərin hörmətlə bağlı sizlərə təşəkkürümü bildirmək istəyirəm. Nizami Gəncəvi Azərbaycanın qədim şəhərlərindən Gəncədə dünyaya göz açıb, yaşayıb, orada vəfat edib və dəfn olunub. Onun müdrikliyi və istedadı Azərbaycan xalqının istedadını və müdrikliyini təcəssüm etdirir.




Prezident İlham Əliyev bu sözləri martın 9-da X Qlobal Bakı Forumunun açılış mərasimində çıxışı zamanı deyib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə keçirilən Qlobal Bakı Forumu bu il yubileyini qeyd edir.

Sayca onuncu forumun mövzusu “Dünya bu gün: çağırışlar və ümidlər”dir. Forumda prezidentlər, baş nazir, parlament sədrləri, nazirlər, sabiq dövlət başçıları olmaqla ümumilikdə 60 ölkədən nümayəndələr iştirak edir.

X Qlobal Bakı Forumunun açılış mərasimindən öncə xatirə fotosu çəkdirilib.

Forumu açıq elan edən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail Serageldin sözü Prezident İlham Əliyevə verib.

Dövlət başçısı X Qlobal Bakı Forumunun təşkilatçısı olan Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin (NGBM) idarə heyətinin üzvlərini nailiyyətləri münasibətilə təbrik edib, NGBM-in həmsədrləri Vayra Vike-Freyberqa və İsmail Serageldinə xüsusi minnətdarlığını bildirib.

İlham Əliyev vurğulayıb ki, Bakı Qlobal Forumunun iştirakçılarının təmsilçilik səviyyəsi və intellektual potensialı aparıcı beynəlxalq konfranslara uyğundur: “Əlbəttə ki, bu, həmsədrlərin, bütün idarə heyətinin düşünülmüş və səmərəli fəaliyyətinin təzahürüdür. Burada 60 ölkədən 350 nəfər iştirakçı var. Onların sırasında 50-dən artıq hazırkı və sabiq prezident və baş nazir var. Beləliklə, təxmin edə bilərik ki, müzakirələrin səviyyəsi kifayət qədər yüksək olacaq. Əlbəttə, ən dəyərlisi beynəlxalq münasibətlərlə bağlı yeni yanaşmalara dair tövsiyələrdir. Mən Forumun proqramı ilə tanış oldum. O, hər zaman olduğu kimi, kifayət qədər genişdir. Proqram Yaxın Şərqi, Afrikanı və Qərbi Balkanları əhatə edir. Bununla yanaşı, bu gün dünya gündəliyinin aktual məsələləri də müzakirələr mövzusu sırasındadır”.

Forumda panellərdən birinin multilateralizm (hər bir ölkəyə bütün tərəfdaşlarla münasibətlərdə imtiyaz imkanı verən beynəlxalq iqtisadi əlaqələr sistemi – red.) mövzusuna həsr olunmasının əhəmiyyətini vurğulayan dövlət başçısı bu xüsusda Azərbaycanın Qoşulmama Hərəkatına dörd il müddətinə (2019-2023) sədrliyi barədə söz açıb: “Biz böyük ənənələrə sahib, lakin müəyyən dövr ərzində, təəssüf ki, bir az passiv Qoşulmama Hərəkatını, – əgər belə demək olarsa, – canlandırmağa çalışdıq. Bu məqsədlə biz beynəlxalq tədbirlər və üç zirvə toplantısı təşkil etdik. Biz COVID-19-a dair BMT Baş Assambleyasının Xüsusi Sessiyasının təşkilinin təşəbbüskarı olduq. Biz fəal çalışaraq pandemiya ilə mübarizə sahəsində məlumat bazasının yaradılmasına nail olduq ki, daha sonra o, Dünya Səhiyyə Təşkilatı tərəfindən istifadə edildi...

Eyni zamanda biz Qoşulmama Hərəkatının institusional inkişafını təmin etməyə çalışdıq. Bu məqsədlə Qoşulmama Hərəkatının 60 illik tarixində ilk dəfə biz təşəbbüsümüzlə Parlament Şəbəkəsini yaratdıq. Onun ilk iclası Bakıda təşkil edildi. Bundan əlavə, Hərəkatın Gənclər Şəbəkəsi də təsis edildi və onun katibliyi Bakıda yerləşir. Biz bu ilin sonunda sədrliyimiz başa çatdıqdan sonra da səylərimizi davam etdirəcəyik. Çünki biz bugünkü parçalanmış dünyada belə bir Hərəkata böyük ehtiyacın olduğunu görürük”.

*davamı səh. 2-də*




## Yaşasın teatr!...

### Teatrla yaşayan, teatrı sevən və teatrda sevilənlərin bayramıdır...

10 mart Milli Teatr Günüdür. 1873-cü il martın 10-da Bakıda maarifçi Həsən bəy Zərdabinin təşəbbüsü, dramaturq Nəcəf bəy Vəzirov, aktyor Əsgər ağa Gorani və Realnı məktəbin şagirdlərinin iştirakı ilə Mirzə Fətəli Axundzadənin “Lənkəran xanının vəziri” komediyası səhnələşdirilib. Bununla qədim tarixə malik xalq teatrı, meydan tamaşaları ənənələri özülündə peşəkar səhnə sənətinin təməli qoyulub. Mədəniyyət tariximizdə açılan yeni səhifə ümumilikdə ictimai həyatımız üçün müstəsna əhəmiyyətli hadisə idi.

Prezident İlham Əliyev 3 fevral 2023-cü il tarixində Azərbaycan teatrının 150 illiyinin qeyd olunması haqqında sərəncam imzalayıb. Əlamətdar yubiley münasibətilə müxtəlif tədbirlər keçirilir, milli səhnə sənətimizin bir əsr yarımlıq yoluna nəzər salınır.

Sərəncamda deyildiyi kimi, Azərbaycan teatrı XIX əsrin taleyüklü ictimai-siyasi hadisələri fonunda köklü dəyişikliklər baş verərkən böyük maarifçi Mirzə Fətəli Axundzadənin ədəbiyyatımıza dram janrını gətirdiyi və xalq teatrının peşəkar milli teatra çevrildiyi bir vaxtda təşəkkül tapıb. Həmin dövrdə ziyalılarımızın Bakı, Şuşa, Şəki, Lənkəran, Naxçıvan, Tiflis və İrəvanda təşkil etdikləri tamaşalar bu şəhərlərin mədəni həyatında mühüm rol oynayıb.

2023-cü il bu baxımdan daha bir neçə ildönümü ilə də əlamətdardır.

Bu il Naxçıvanda peşəkar teatrın təşəkkül tapmasının 140 illiyidir. 11 mart 1883-cü ildə Naxçıvanda (Hacı Nəcəf Zeynalovun evində) yazıçı, maarifçi Eynəli bəy Sultanovun rəhbərliyi ilə M.F.Axundzadənin “Müsyö Jordan və dərviş Məstəli şah” komediyasının tamaşası oynanılıb.

Bu il Sumqayıt və Mingəçevir teatrlarının 55 yaşı tamam olur. 12 mart 1968-ci ildə Azərbaycan SSR Nazirlər Sovetinin qərarı ilə Sumqayıt Dövlət Gənclər Teatrı yaradılıb. Teatrın ilk tamaşası (“Müsyö Jordan və dərviş Məstəli şah”) 1969-cu ilin 14 martında nümayiş olunub. 1970-ci ildə Sumqayıt Dövlət Dram Teatrı adlandırılıb. Eyni vaxtda M.Davudova adına Mingəçevir Dövlət Dram Teatrı yaradılıb. Sənət ocağı 1969-cu il martın 28-də Cəfər Cabbarlının “Almaz” əsərinin tamaşaya qoyulması ilə fəaliyyətə başlayıb.

Bu il həmçinin Lənkəran Dövlət Dram Teatrının 24 illik aradan (1949-1972) sonra fəaliyyətini bərpa etməsinin 50-ci ildönümüdür.

Lakin ayrı-ayrılıqda teatr kollektivlərinin yaşından, tarixindən daha ötəsi, bu il bütövlükdə Azərbaycan teatrının böyük yubileyi, bu gün isə 10 mart – Milli Teatr Günüdür.

Teatra həyatını həsr edən, teatrla yaşayan, teatrı sevən, teatrda sevilən hər kəsin sənət bayramı mübarək! Yaşasın teatr!...

## “Mərmər soyuğu” Fransada isti qarşılanıb

### Üç mükafat qazanıb...




Fransanın Vesoul şəhərində 29-cu Asiya Filmləri Beynəlxalq Festivalının (Festival International des Cinymas d’Asie) mükafatlandırma mərasimi keçirilib.

Mədəniyyət Nazirliyinin dəstəyi ilə “Azərbaycanfilm” kinostudiyası, İctimai Televiziya, Bakı Media Mərkəzi və Fransanın “Arizona Films” şirkətinin birgə istehsalı olan “Mərmər soyuğu” tammetrajlı bədii filmi festivalın “Beynəlxalq jürinin böyük mükafatı, “NETPAC” jürisinin mükafatı və “Marc Haaz” jüri mükafatlarına layiq görülüb. Festivalda filmin rejissoru Asif Rüstəmov da iştirak edib. Film uğursuz rəssamla sevgilisinin qarışıq münasibətlərindən bəhs edir.

Filmin baş prodüseri Arzu Əliyeva, ssenari müəllifləri Asif Rüstəmov və holland həmkarı Roelof Jan Minneboo, quruluşçu operatorları Oktay Namazov və Adil Abbasov, quruluşçu rəssamı Rafiq Nəsirovdur. Əsas rollarda Elşən Əsgərov, Natəvan Abbaslı və Xalq artisti Qurban İsmayılov çəkiliblər.

## Səudiyyə şahzadəsi işğaldan azad edilmiş ərazilərdə olub

Səudiyyə Ərəbistanının Kral Faysal İslam Araşdırmalar Mərkəzi idarə heyətinin sədri şahzadə Turki əl-Faysal əl-Səud Azərbaycanın işğaldan azad olunmuş ərazilərində – Füzuli rayonunda və Şuşada olub.

Bakıdan təyyarə ilə Füzuli Beynəlxalq Hava Limanına gələn qonağa işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən bərpa-quruculuq işləri, infrastruktur layihələri, Füzuli şəhərinin inkişaf planı barədə məlumat verilib. Azərbaycan Respublikası Prezidentinin Xüsusi nümayəndəliyinin əməkdaşı Araz İmanov diqqətə çatdırıb ki, Füzuli və Zəngilan hava limanları müvafiq olaraq 2021 və 2022-ci illərdə istifadəyə verilib. Laçın rayonunda aeroportun inşası davam edir.

Sonra rayonun Qaraxanbəyli kəndinə gələn qonağa ərazinin Ermənistan tərəfindən basdırılmış minalardan təmizlənməsi işləri barədə məlumat verilib. Bildirilib ki, Qaraxanbəyli kəndi İkinci Qarabağ müharibəsinin ilk günündə işğaldan azad edilmiş yaşayış məntəqələrindəndir. Burada 44 günlük müharibənin ilk şəhidlərinin şərəfinə abidə ucaldılıb.

*davamı səh. 4-də*

## Yenilik iddialı üçüncü “Baxış”

Teatra marağı artırmaq, peşəkar səhnə vərdişləri olanlarla birgə iş aparmaq və həvəskarları yaradıcılıq sahələri üzrə istiqamətləndirmək teatr sənətimiz üçün ən ümdə məsələlərdəndir.

Ələlxüsus da peşəkar aktyor və elə həm də rejissor sarıdan böhran yaşayan bəzi bölgə teatrları üçün. Belə olduqda niyə ayrı-ayrı rejissor və aktyor hazırlığı ilə məşğul olan uzunmüddətli kurslar, tematik müzakirələr, ayrı-ayrı üslub və janrlar üzrə oturuşmuş yaradıcılıq ənənəsi olanlar tərəfindən praktiki məşğələlər olmasın?

6-9 mart tarixlərində məhz bu təkliflərə “hə” deyənlərin bir araya gəlib, ən azı səhnə, teatr adına növbəti cəhdlərinə şahidlik etdik. Azərbaycan Teatr Xadimləri İttifaqında (ATXİ) “Gənc rejissorların yaradıcılıq laboratoriyası”nın (laboratoriyanın bədii rəhbəri Əməkdar incəsənət xadimi Bəhram Osmanovdur) “Baxış – 3” teatr festivalı keçirildi.

Budəfəki festivalın proqramında müxtəlif üslub və janrlarda 8 tamaşa yer almışdı. Səhnə əsərləri ATXİ-nin kiçik və böyük səhnələrində nümayiş olundu.

*davamı səh. 3-də*

### Filarmoniyada konsert – “Sən elə bir zirvəsən”



səh. 5

### Milli Muğam Müsabiqəsi keçiriləcək

Qaliblər Azərbaycanı 6-cı Beynəlxalq Muğam Festivalında təmsil edəcək

səh. 3



### Vyanada Azərbaycan xalçalarının sərgisi

səh. 8

№18-19 (1988)
10 mart 2023
www.medeniyyet.az

# Mədəniyyətlərarası Dialoq Forumu gələn ildən bərpa olunacaq

BMT-nin Sivilizasiyalar Alyansı ilə Azərbaycan arasında uğurlu əməkdaşlıq var, imzalanmış anlaşma memorandumuna uyğun olaraq müxtəlif sahələrdə təmaslar həyata keçirilir.

BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi Migel Anxel Moratinos bunu martın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə görüşdə deyib. O, BMT-nin Sivilizasiyalar Alyansının fəaliyyətini daim dəstəklədiyinə görə dövlətimizin başçısına təşəkkürünü bildirib.

Qonaq Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin X Qlobal Bakı Forumunda iştirakından məmnunluğunu ifadə edərək, Mərkəzin artıq beynəlxalq səviyyədə tanınmış və böyük nüfuza malik bir təsisat rolunda çıxış etdiyini deyib.

Migel Anxel Moratinos BMT-nin Sivilizasiyalar Alyansının "One Humanity" təşəbbüsü barədə məlumat verərək, bu çərçivədə dünyanın müxtəlif şəhərlərində konsert proqramlarının təşkil ediləcəyini və bu xüsusda da ölkəmizlə əməkdaşlığa hazır olduğunu bildirib.

Prezident İlham Əliyev Azərbaycanla BMT-nin Sivilizasiyalar Alyansı arasında çox sıx əməkdaşlığın həyata keçirildiyini qeyd edərək, ölkəmizin bundan sonra da Alyansın fəaliyyətini dəstəkləyəcəyini vurğulayıb.

Prezident Azərbaycanda ənənəvi keçirilən və COVID-19 pandemiyasına görə müvəqqəti təxirə salınan Mədəniyyətlərarası Dialoq Forumunun da gələn ildən bərpa olunacağını, bu xüsusda ölkəmizlə BMT-nin Sivilizasiyalar Alyansının əməkdaşlığının davam edəcəyinə əminliyini bildirib.

Görüşdə Azərbaycanın zəngin irsi və təcrübəsi əsasında dünya səviyyəsində sivilizasiyalar və mədəniyyətlər arasında dialoq prosesinə verdiyi töhfə qeyd edilib.

Xatırladaq ki, Bakıda Azərbaycan Respublikası Prezidentinin himayəsi altında Dünya Mədəniyyətlərarası Dialoq Forumu ilk dəfə 2011-ci ildə keçirilib və daha sonra iki ildən bir təşkil edilib. "Ayrı-seçkilik, qeyri-bərabərlik və zorakı münaqişəyə qarşı fəaliyyət naminə dialoq quraq" şüarı altında V Dünya Mədəniyyətlərarası Dialoq Forumu 2019-cu ilin 2-3 may tarixlərində gerçəkləşib.

# Tofiq Kazımovun 100 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2023-cü ildə Azərbaycanın görkəmli teatr rejissoru, dövlət mükafatları laureatı, tanınmış pedaqoq, Xalq artisti Tofiq Səməd Mənsur oğlu Kazımovun anadan olmasının 100 illi tamam olur.

Orijinal yaradıcılıq dəst-xəttinə malik fitri istedadlı rejissor kimi Tofiq Kazımov Azərbaycan teatrının repertuarını yüksək bədii-estetik meyarlı səhnə əsərləri ilə daha da zənginləşdirmişdir. Sənətkar özünün teatr məktəbini qurmağa müvəffəq olmuş və həmin məktəb ölkə teatrını irəli apararaq ona yeni nailiyyətlər qazandırmışdır. Tofiq Kazımov milli və dünya dramaturji irsinin diqqətəlayiq nümunələrinə müasirlik kontekstində verdiyi mükəmməl quruluşlarla mədəniyyət salnaməmizə parlaq səhifələr yazmışdır. Onun hazırladığı və ictimai-mənəvi proseslərin axarında zamanın ritmini və insanların təfəkkür tərzini dolğun təcəssüm etdirən novator tamaşalar ideya-bədii bütövlüyü ilə seçilərək teatr ictimaiyyəti tərəfindən həmişə böyük maraqla qarşılanmış, respublikanın mədəni həyatında hadisəyə çevrilmişdir. Sənət xəzinəmizin qızıl fondunda layiqli yer tutan bu səhnə əsərləri bir çox məşhur aktyorların formalaşmasında əhəmiyyətli rol oynamışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan teatrının inkişafı və təbliği işinə dəyərli töhfələr vermiş görkəmli rejissor Tofiq Kazımovun anadan olmasının 100-cü ildönümünün qeyd olunması təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Xalq artisti Tofiq Kazımovun 100 illik yubileyi ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 3 mart 2023-cü il**

# Azərbaycanla Rusiya arasında humanitar-mədəni əməkdaşlıq müzakirə edilib

Azərbaycanla Rusiya arasında humanitar və mədəniyyət sahələrində əməkdaşlıq məsələləri, regional humanitar layihələr martın 7-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə Rusiya Prezidentinin beynəlxalq mədəni əməkdaşlıq üzrə xüsusi nümayəndəsi Mixail Şvıdkoyun görüşündə müzakirə olunub.

Nazir Ceyhun Bayramov post münaqişə dövründə Azərbaycanın sülh quruculuğu sahəsində səyləri, bölgədə yenidənqurma işləri barədə ətraflı məlumat verib. Ermənistan tərəfinin artan təxribatlarının, sülh sazişi üzrə danışıqlarda yaratdığı çətinliklərin, bölgədə vəziyyəti gərginləşdirməyə yönəlmiş addımların sülhə maneçilik törətdiyi vurğulanıb.

Mixail Şvıdkoy Azərbaycanın multikulturalizm məkanı olduğunu, Azərbaycanda keçirilən beynəlxalq forumların əhəmiyyətini xüsusi qeyd edərək mədəniyyət və humanitar sahələrdə birgə proqramların həyata keçirilməsinə hazır olduqlarını bildirib.

# Dünyanın çağırış və ümidləri Nizami irsi işığında

## "Nizaminin müdrikliyi Azərbaycan xalqının müdrikliyini təcəssüm etdirir"

*əvvəli səh. 1-də*

### Sülh, əməkdaşlıq, ərazi bütövlüyünə və suverenliyə hörmət

Bu gün dünyada "soyuq müharibə"nin bitməsindən sonra ən ciddi qlobal qarşıdurmanın yaşandığını deyən İlham Əliyev vurğulayıb ki, Qoşulmama Hərəkatı körpülərin salınmasında, münaqişələrin həllində yeni yanaşmaların formalaşdırılması və Qoşulmama Hərəkatının təməl prinsiplərinin – Bandunq Prinsiplərinin təmin edilməsində mühüm rol oynaya bilər və oynamalıdır. Həmin prinsiplər – sülh, əməkdaşlıq, ərazi bütövlüyünə və suverenliyə hörmət, habelə sərhədlərin toxunulmazlığından ibarətdir.

Münaqişələrin həllinə gəldikdə isə, Azərbaycan Prezidenti diqqətə çatdırıb ki, münaqişələrin həlli iki cür olur – dinc yolla və qeyri-dinc yolla: "Biz Ermənistanla münaqişəni dinc yolla həll etməyə çalışırdıq. Baxmayaraq ki, Ermənistan tərəfindən işğal Azərbaycan ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrini icra etmək üçün Ermənistanı inandırmaq cəhdlərimizə baxmayaraq, Ermənistan, sadəcə, BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrinə məhəl qoymadı və beynəlxalq hüquqa, beynəlxalq ictimaiyyətə hörmətsizlik göstərdi. 1992-ci ildə münaqişə yarandıqdan sonra ATƏT Minsk qrupunu təsis etdi. Lakin əfsuslar olsun ki, 28 il ərzində Minsk qrupu heç bir nəticəyə nail olmadı... Biz özünümüdafiə hüququmuzdan, BMT-nin Xartiyasından, xüsusən də onun 51-ci maddəsindən istifadə edərək düzgün olanı etdik. Biz öz ərazilərimizi güc tətbiq etməklə azad etdik. Bu, bizim legitim hüququmuz idi". İşğal nəticəsində bir milyondan artıq azərbaycanlı yurdsuz qalmış, qaçqın və məcburi köçkünə çevrilmişdir... Münaqişəni dinc yolla həll etmək və erməni qoşunlarının Azərbaycan ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrini icra etmək üçün

Prezident qeyd edib ki, Azərbaycanın öz ərazilərini işğaldan azad etməsindən təxminən iki il yarım vaxt ötür və biz 10 min kvadrat kilometr tamamilə dağıdılmış ərazini yenidən tikirik: "Yeri gəlmişkən, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin nümayəndələri Şuşaya səfər ediblər və orada panel müzakirələr aparıblar. Onlar Füzulidə və Şuşada dağıntıları görüblər və bu, həqiqətən də, barbarlıq, urbisid, kultursid, ekosid əlamətidir. Bunu edən bizim qonşularımız olub. Azərbaycan xalqının qisas almaq üçün mənəvi hüququ var və mən bunu anlayıram. Lakin mənim mesajım döyüş meydanında qisası almaqla həyata keçdi. Biz ermənilərdən fərqli olaraq heç hansı hərbi cinayət törətmədik. Biz ermənilərdən fərqli olaraq soyqırımı törətmədik. Biz döyüş meydanında qisas aldıq".




### Qarabağdakı ermənilərin həyatı, işğal dövründən daha yaxşı olacaq

"Hazırda sülh üçün vaxt yetişib", – deyən İlham Əliyev diqqətə çatdırıb ki, Azərbaycan Ermənistanla sülh müqaviləsinin əsasını təşkil edəcək beş prinsipi təqdim edib: "Ümid edirik ki, vasitəçiliyə cəhd göstərən beynəlxalq iştirakçılar Ermənistanı şansı əldən buraxmamağa dilə gətirəcəklər. Onlar müstəqil ölkə olmaq şansını itiriblər. Onlar tamamilə asılı olan, digər ölkənin və hazırda, ola bilsin, digər ölkələrin müstəmləkəsinə çevriliblər. Beləliklə, onlar bizə qarşı təcavüz səbəbindən, həqiqətən, müstəqil olmaq, öz gələcəyini qurmaq şansını əldən buraxıblar.

Beləliklə, hazırda onlar üçün öz qonşuları ilə qonşu kimi davranmaq şansı yaranıb. Bir sözlə, biz sülh istəyirik. Biz hər hansı digər müharibəni istəmirik. Hesab edirik ki, sülhə nail olmaq olar. Ötən ilin oktyabrında Azərbaycan ilə Ermənistan arasında razılaşdırılmış məsələlər, xüsusən də, bir-birinin suverenliyinə və ərazi bütövlüyünə hörmət əslində onu göstərir ki, sülhə nail olmaqda manеə yoxdur".

Prezident vurğulayıb ki, Azərbaycan çoxkonfessiyalı, çoxmillətli ölkədir və erməni azlığının hüquqları da ölkədəki digər azlıqların hüquqları kimi Konstitusiya ilə qorunacaq: "Azərbaycanda real vəziyyətlə tanış olan hər kəs deyə bilər ki, Azərbaycan yüksək dini və etnik dözümlülüyü ilə seçilən, müxtəlif etnik qrupların, konfessiyaların nümayəndələrinin dinc və ləyaqətli şəkildə yaşadığı ölkədir. Bir sözlə, əminəm ki, Azərbaycanın Qarabağ bölgəsində yaşayan ermənilərin həyatı işğal dövründən fərqli olaraq daha yaxşı olacaq.

Hər münaqişənin öz tarixi, öz dinamikası və sonu var. Lakin vacib odur ki, ölkələr arasında mübahisələr beynəlxalq hüquq əsasında həll olunsun, onların ərazi bütövlüyü və suverenliyi güc hesabına dəyişdirilməsin. Bu, Azərbaycanın mövqeyidir. Bu mövqe yalnız bizim məsələmizə deyil, dünyadakı bütün münaqişələrə şamil edilir. Biz bu mövqeyi açıq şəkildə bəyan edirik".

Forumun panel müzakirələrindən birinin enerji və daşımalar dəhlizlərinə, enerji keçidinə həsr olunduğunu deyən İlham Əliyev Azərbaycanın Avropa İttifaqı ilə bu istiqamətdə əməkdaşlığı və ümumilikdə beynəlxalq enerji təhlükəsizliyinə verdiyi töhfələr barədə danışıb: "Beləliklə, biz dünyamızın daha dinc və təhlükəsiz olmasına töhfə verməyə çalışacağıq...".

***

Sonra Latviya Respublikasının Prezidenti Egils Levits, Timor-Leste Demokratik Respublikasının Prezidenti Xose Ramos Horta, BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi Migel Anxel Moratinos, BMT-nin Baş katibi yanında İİV-lə (İnsanın immunçatışmazlığı virusu) birgə Mübarizə Proqramının icraçı direktoru Vinni Byanima çıxış ediblər.

Dünya Səhiyyə Təşkilatının baş direktoru Tedros Adhanom Qebreyesusun videomüraciəti dinlənilib, İtaliya Prezidenti Sercio Mattarellanın və Böyük Britaniyanın Baş naziri Rişi Sunakın məktubları oxunub.

Sonra Latviyanın sabiq prezidenti və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri Vayra Vike-Freyberqa çıxış edib.

Açılış mərasimindən sonra panel iclasları keçirilib.

X Qlobal Bakı Forumu martın 10-da işini davam etdirəcək. Foruma martın 11-də yekun vurulacaq.

# Nizami Gəncəvi Beynəlxalq Mərkəzi dünyada nüfuzlu təsisata çevrilib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 8-də Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrləri Vayra Vike-Freyberqanı və İsmail Serageldini, keçmiş dövlət və hökumət başçılarını, Mərkəzin idarə heyətinin üzvlərini qəbul edib.

Mərkəzin fəaliyyətinə göstərdiyi davamlı dəstəyə görə Azərbaycan Prezidentinə minnətdarlıqlarını ifadə edən qonaqlar ötən 10 il ərzində Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin beynəlxalq səviyyədə nüfuzlu təsisata çevrildiyini bildiriblər.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə göstərdiyi dəstəyi bundan sonra da davam etdirəcəyini bildirən dövlətimizin başçısı bu təsisatın beynəlxalq səviyyədə nüfuzunun artırılmasının, yaxtı platformaya çevrilməsinin əhəmiyyətini vurğulayıb, onun sıralarının genişlənməsini və yeni regionlardan olan təmsilçilərin Mərkəzin fəaliyyətinə qoşulmasını müsbət amil kimi dəyərləndirib.

X Qlobal Bakı Forumunun çox aktual mövzuya həsr olunduğunu qeyd edən İlham Əliyev tədbir çərçivəsində multilateralizmlə, regional və qlobal problemlərlə bağlı məsələlərin müzakirə olunacağını deyib.

Vayra Vike-Freyberqa 2012-ci ildə ölkəmizə səfəri çərçivəsində qədim Gəncə şəhərində dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin yubileyinə həsr olunmuş konfransda iştirakını qeyd edərək, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin yaradılmasının və Qlobal Bakı Forumunun keçirilməsinin əsasının məhz həmin tədbirdə qoyulduğunu xatırladıb.

Görüşdə X Qlobal Bakı Forumu, beynəlxalq və regional gündəlikdə duran məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Forum çərçivəsində Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin 100 illiyinə həsr olunmuş konfransın keçiriləcəyi də diqqətə çatdırılıb.

Dövlətimizin başçısı Cənubi Qafqazda sülh və təhlükəsizlik məsələləri, Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması və sülh müqaviləsi üzrə danışıqlar prosesi, ölkəmizin Avropanın enerji təhlükəsizliyində oynadığı rol və digər məsələlər barədə söz açıb, qonaqların suallarını cavablandırıb.

# "Könüllər mülkünün sultanı" Özbəkistan səhnəsində

Əməkdar mədəniyyət işçisi İftixar Piriyevin dahi Azərbaycan şairi Nizami Gəncəvinin həyat və yaradıcılığını təcəssüm etdirən "Könüllər mülkünün sultanı – şeyx Nizami Gəncəvi" tarixi dramı Özbəkistanda, Səmərqənd Musiqili Dram Teatrında tamaşaya qoyulub.



Səhnə əsərinə İrəvan Dövlət Azərbaycan Dram Teatrının baş rejissoru, Əməkdar artisti Sərvər Əliyev quruluş verib. Səhnə tərtibatçısı Bəhram Safoyev, rejissor assistenti Anabibi Mardiyevadır. Musiqi tərtibatında Qara Qarayevin və Müslüm Maqomayevin əsərlərindən istifadə olunub.

Şeyx Nizami Gəncəvinin obrazını Özbəkistanın Əməkdar artisti Baxtiyar Rahimov canlandırır. Ümumilikdə səhnə 35 nəfərlik heyət iştirak edir.

Səmərqənd Vilayət Musiqili Dram Teatrının səhnəsində təmir işləri getdiyindən tamaşaya martın 8-də Kattakurqan Şəhər Dram Teatrının səhnəsində daxili baxış keçirilib. Tamaşanın premyerasının martın 11-12-də keçiriləcəyi gözlənilir.

# Media subyektləri üçün vergi güzəştləri ediləcək

## Media fəaliyyətinə edilən manеələrə görə isə cərimələr artırılır

Media subyektləri (audiovizual media subyektləri istisna olmaqla) tərəfindən istehsal olunan media məhsullarının təqdim edilməsi, habelə Azərbaycan Respublikasında daimi nümayəndəlik yaratmayan qeyri-rezident şəxslər tərəfindən media subyektlərinə (audiovizual media subyektləri istisna olmaqla) media fəaliyyəti ilə bilavasitə bağlı olan işlərin görülməsi və xidmətlərin göstərilməsi əlavə dəyər vergisindən azad edilir.

Bu barədə Vergi Məcəlləsinə dəyişikliklə bağlı qanun layihəsi martın 7-də Milli Məclisin iclasında üçüncü oxunuşda qəbul edilib.

Layihəyə əsasən, azadolmalar 2023-cü il yanvarın 1-dən tətbiq olunmaqla 3 il müddətində qüvvədə olacaq.

Bundan əlavə, media haqqında qanunvericiliyin pozulmasına görə cərimələrin artırılması ilə bağlı İnzibati Xətalar Məcəlləsinə dəyişikliklər edilib. Dəyişikliyə əsasən, media məhsullarının qanunla müəyyən edilmiş qaydada yayımına manе olmağa görə fiziki şəxslər 200 manatdan 300 manatadək məbləğdə cərimə ediləcəklər. İndiyədək sözügedən cərimə 100-150 manat arasında idi. Jurnalistlərin peşəkar fəaliyyətinə qanunsuz müdaxilə edilməsinə görə 300 manatdan 600 manatadək məbləğdə cərimə müəyyənləşir. Məcəlləyə təklif edilən digər dəyişikliklə qanunla müəyyən edilmiş müddətdə media subyektləri və jurnalistlərin sorğusuna cavab verilməməsinə görə 300 manatdan 500 manatadək məbləğdə cərimə tətbiq edilməsi təklif olunur. Layihə üçüncü oxunuşda qəbul edilib.

# "Dəyirmi masa"da şikəstələrdən danışılıb



Beynəlxalq Muğam Mərkəzinin (BMM) "Dəyirmi masa" layihəsi davam edir. Layihə üzrə martın 7-də gerçəkləşən növbəti tədbirdə muğamın tərkib hissəsi olan şikəstələrdən söz açılıb, "Kəsmə şikəstə"nin əvəzolunmaz ifaçısı, Əməkdar artist Fatma Mehrəliyevanın (1926-2000) da xatirəsi yad olunub.

Filologiya üzrə fəlsəfə doktoru Gülhüseyn Kazımlının moderatorluğu ilə keçirilən tədbirdə xanəndə Ağakərim Nafiz, sənətşünaslıq elmləri doktoru, professor Abbasqulu Nəcəfzadə, Əməkdar incəsənət xadimi, professor Arif Əsədullayev, Əməkdar elm xadimi İbadulla Ağayev, tədqiqatçı-alim Turan İbrahimov, yazıçı-publisist Kənan Hacı, Türkiyənin Süleyman Dəmirəl Universitetinin (İsparta) tələbəsi, tədqiqatçı Amin Namazlı çıxış ediblər.

Azərbaycan muğamında şikəstələrin fərqli xüsusiyyətləri və yaranma tarixçələri haqqında ətraflı fikir mübadiləsi aparılıb. Qeyd olunub ki, aşıq musiqisindən yaranса da, şikəstələr artıq muğam irsimizin bir parçasına çevrilib. Əlliyə yaxın şikəstə məlumdur, amma təəssüf ki, günümüzdə çox az hissəsi ifa olunur.

Tədqiqatlar göstərir ki, dünyanın heç bir xalqının musiqi mədəniyyətində belə janrda musiqi yoxdur. Şikəstələr Azərbaycanda yaranmış və xalqımıza məxsus musiqi janrıdır. Şikəstələr əsasən müharibələrdən, fəlakətlərdən əziyyət çəkən xalqın əzablarının ifadəsidir.

Tədbirdə Fatma Mehrəliyevanın ifaçılıq xüsusiyyətləri də müzakirə olunub, sənətkarın ifasında lentə yazılmış "Kəsmə şikəstə" səsləndirilib.

**Lalə Azəri**

# Opera və moda – iki sənət bir arada

## Heydər Əliyev Mərkəzində konsert və sərgi

Martın 8-də Heydər Əliyev Mərkəzində "Opera və moda. Sultan Couture 20" adlı konsert və sərgi keçirilib. Beynəlxalq Qadınlar Gününə bayram əhvali-ruhiyyəli layihə tamaşaçılarda dərin təəssürat yaradıb.



Opera və moda həmişə bir-birinə sıx bağlı olub. Opera müğənniləri səhnəyə ən gözəl libaslarda və zərgərlik nümunələri ilə çıxırlar. Opera kostyumları modaya və ya əksinə – geyim dəbləri opera səhnəsinə daim sirayət edib. Tamaşaçılar məşhur opera əsərləri ilə moda evlərinin müştərək səhnə performanslarını da həmişə maraqla izləyib.

Heydər Əliyev Mərkəzindəki opera və modanın birləşdiyi konsertdə tanınmış vokalçılar – Stanislavski və Nemiroviç-Dançenko adına Moskva Akademik Musiqili Teatrının solisti Anastasiya Çernovolos (soprano), "Helikon-Opera" Moskva Musiqili Teatrının solisti Elnarə Məmmədova (soprano), beynəlxalq müsabiqələr laureatı Yana Melikayeva (mezzo-soprano) və Yekaterina Sannikova (soprano) iştirak ediblər.

Proqramda Azərbaycan və dünya bəstəkarlarının ən parlaq və məşhur əsərləri ifa olunub. İfaçıları dirijor Mustafa Mehmandarovun rəhbərliyi ilə Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri müşayiət edib.

Gecəyə fərqlilik gətirən daha bir məqam opera müğənnilərinin səhnəyə rəssam-modelyer Orxan Sultanın məhz Bakı konserti üçün hazırladığı libaslarda çıxması olub.

"Auditorium" zalındakı konsert zamanı bu il 20 yaşını qeyd edən "Sultan Couture&Co" brendinə məxsus kolleksiya nümayiş etdirilib. Gecə ərzində səhnəyə çıxan müğənnilər həm də "BVLGARI" brendinin zinət əşyalarını təqdim ediblər. Beləliklə, konsertdə tamaşaçılar həm gözəl vokal interpretasiyaları, zəngin repertuar, həm də cazibədar səhnə geyimləri ilə məşhur zərgərlik brendinin kolleksiyasının şahidi olublar.

Konsert müğənnilərin Müslüm Maqomayevin bəstələdiyi həmişəyaşar "Azərbaycan" mahnısının birgə ifası ilə başa çatıb.

Konsertdən sonra Anastasiya Çernovolos öz təəssüratlarını bölüşüb: "Bu bir musiqi və moda bayramı idi. Bunun ənənəyə çevrilməsi və gələcəkdə mədəniyyətləri birləşdirən festivalın təşkil edilməsi gözəl olardı".

Beynəlxalq müsabiqələr laureatı Yana Melikayeva da tədbirdə iştirakından məmnunluğunu ifadə edib: "Bu tədbirə uzun müddət hazırlaşmışıq. Çox xoşbəxtəm ki, Müslüm Maqomayevin repertuarından mahnı ifa etdim...".

Heydər Əliyev Mərkəzində bu layihə çərçivəsində təqdim olunan "Azərbaycanın opera tarixində ilk qadın ifaçı və bəstəkarlar" adlı sərgi də maraq doğurub. Müsəlman Şərqində ilk dəfə qadın ifaçılar məhz Azərbaycanda teatr səhnəsinə çıxıblar. Sərgidə ilk qadın opera müğənniləri Fatma Muxtarova, Gülxar Həsənova, Sona Aslanova, Sona Mustafayeva, Şövkət Məmmədova, Şərqdə ilk opera yazmış qadın bəstəkar Şəfiqə Axundova haqqında məlumat verilib. "İlk Azərbaycan opera müğənniləri səhnə geyimlərində" bölməsində qadın ifaçıların məşhur tamaşalardakı səhnə geyimlərində fotoları sərgilənib.

# Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunda "Manas" günü

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunda qırğız xalqının qədim eposuna həsr olunmuş "Manas" günü" təşkil edilib. Tədbir çərçivəsində alim, şair Adil Cəmilin Fond tərəfindən Azərbaycan və qırğız dillərində nəşr olunan "Manas" eposu və türk dastançılıq ənənəsi" kitabının təqdimatı da keçirilib.



Fondun prezidenti Günay Əfəndiyeva çıxış edərək türk xalqlarının dastanlarının dünyanın ən zəngin folklor nümunələri arasında yer aldığını bildirib. O, "Manas" eposunu qırğız xalqının mənəviyyatı kimi dəyərləndirib. Qeyd edib ki, "Manas" qəhrəmanlıq dastanı olmaqla bərabər qırğız xalqının daxili aləmini, düşüncəsini, milli kimliyini əks etdirir. Digər tərəfdən, "Manas" nəsillərdən-nəsillərə ötürülən miras və türk xalqlarının ortaq dəyəridir.

Günay Əfəndiyeva 1995-ci ildə Bişkekdə dastanın 1000 illiyinə həsr olunmuş tədbirdə Azərbaycanın Ümummilli lideri Heydər Əliyevin dediyi "Manas" kimi ölməz dastanlarımız bütün bəşəriyyətin əbədi sərvətidir. Nə dərəcədə "Manas" qırğız xalqınındır, o dərəcədə də Azərbaycan xalqınındır. "Manas" bütün türk xalqlarına məxsusdur" sözlərini xatırladıb.

Fondun prezidenti "Manas"ın dərindən öyrənilməsi yönündə tanınmış alim Adil Cəmilin yazdığı kitabın əhəmiyyətini də vurğulayıb.

Tədbirdə çıxış edən Qırğız Respublikası Prezidentinin xüsusi nümayəndəsi Taalatbek Masadıkov bildirib ki, "Manas" dünya epos sənətinin parlaq zirvələrindən biridir. Fond tərəfindən çap edilən kitabın təkcə qırğız xalqının deyil, bütün türk dünyasının mədəniyyətinin, folklor irsinin öyrənilməsinə mühüm töhfədir. T.Masadıkov kitabın nəşrində dəstəyə görə Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fonduna, eləcə də mövzuya maraq göstərdiyinə və dərindən araşdırdığına görə müəllifə təşəkkür edib.

Qırğızıstanın Azərbaycandakı səfiri Kairat Osmanaliyev "Manas"ın elmi tədqiqinin və digər xalqların dastanları ilə müqayisəli təhlilinin hər zaman aktual olduğunu qeyd edib. Diplomat eposun BMT tərəfindən dünyanın mədəniyyət xəzinəsi elan edildiyini vurğulayıb. Bildirib ki, minillik tarixi ehtiva edən bu tarixi mənbədə qırğız xalqı ilə müxtəlif türk xalqları arasındakı dostluq bağları da geniş təsvir olunub.

Tədbirdə daha sonra Milli Məclisin deputatı akademik Nizami Cəfərov, Qırğızıstanın TÜRKSOY-dakı nümayəndəsi Kanat Mambetaliyev, AMEA-nın Folklor İnstitutunun direktoru akademik Muxtar İmanov, Azərbaycanın Türk Dövlətləri Təşkilatının Ağsaqqallar Şurasında nümayəndəsi Həsən Həsənov çıxış ediblər.

Tədbirin bədii hissəsində Heydər Əliyev adına Hərbi İnstitutun kursantı Emirtemir Tolonov "Manas" dastanından parçalar səsləndirib. Azərbaycanlı tarzən Sahib Paşazadə və qırğız müğənni Saule Osmonaliyeva tərəfindən Qırğızıstanın milli musiqiləri və mahnıları ifa olunub.

# Yenilik iddialı üçüncü "Baxış"

## ATXİ-də "Gənc rejissorların yaradıcılıq laboratoriyası"nın növbəti təqdimatları

*əvvəli səh. 1-də*

Festival martın 6-da iki tamaşa ilə (ideya müəllifi və quruluşçu rejissoru Məhəmməd Verdiyev olan "Sonuncu güllə" və ideya müəllifi və quruluşçu rejissoru Ceyhun Zərbəliyev olan "Müsibəti-Qara") öz işinə başladı.





ATXİ-nin sədr müavini, Xalq artisti Hacı İsmayılov festival, onun məqsəd və məramı haqqında qısa məlumat verdi. Bildirdi ki, bu kimi təşəbbüslər xüsusən gənclərdə teatra sevgi və maraq yaradır. Festivalın keçirilməsində əsas məqsəd 4 ay müddətində laboratoriyada məşğul olan gənclərin mənimsədikləri bilik və bacarıqları nümayiş etdirmək, onları yeni axtarışlara ruhlandırmaq və teatr məkanında baş verən yaradıcılıq proseslərini fəallaşdırmaqdır.

Xalq artisti üçüncü festivalın əlamətdar tarixi dövrə – peşəkar Azərbaycan teatrının 150 illik yubileyinə təsadüf etdiyini və bu mənada onun istər tamaşaçılar, istərsə də teatr ictimaiyyəti üçün bir hədiyyə olduğunu dedi. Bildirdi ki, teatrımızın yubileyi ilə bağlı ölkə başçısı tərəfindən sərəncam imzalanması teatra və səhnə xadimlərinə diqqət və qayğının növbəti bariz nümunəsidir: "Bu diqqət, bu dəstək, sözsüz ki, teatr kimi çətin və məsuliyyətli sənətlə məşğul olan hər birimiz üçün böyük stimuldur".

Festivalın proqramı haqqında da məlumat verən ATXİ-nin sədr müavini teatrsevərləri bu sənət bayramında yaxından iştiraka səslədi.

Festivalın ikinci günü də maraqlı oldu. Turqay Narın "Dərzi qayçısı" (rejissor Elnur Əkbərov) və Melik Cevdet Andayın "İçəridəkilər" (rejissor Zeynəb Tahir) əsərləri əsasında hazırlanan səhnə aktları tamaşaçıların müzakirəsinə verildi.

8 martda da festival izləyiciləri iki səhnə əsərinə baxdılar. Əvvəlcə Toyqun Orbayın eyniadlı pyesi əsasında hazırlanan "21:15 qatarı" (rejissor Ağasəlim Feyzullayev, iştirakçılar Bahar Həmzəyeva, Rasəf Mehdiyev, Emin Sevdimalıyev və Cavid Cavadzadə) tamaşası nümayiş olundu. Sonra Gün Tuncər Cücənoğlunun sosial mənəvi münasibətlərin insan həyatındakı dağıdıcı təsirindən bəhs edən "Bircə kasıb olsaydım..." tamaşası (rejissor Sevda Hacışəmiyeva, iştirakçılar Anar Səfiyev, Aygün Fətullayeva) göstərildi.

Festivalın son günü, martın 9-da Pərvin Ünalpın "Spiral" (rejissor Könül Şahbazova, iştirakçılar Gülər Ləzgiyeva, Zeynəb Kəngərli) və ideya və quruluşu Leyla Ələsgərovaya məxsus "Trilemma" (iştirakçılar Cahan Zəkəriyyəyeva, İsmayıl Abbaszadə, Nərmin Quliyeva) tamaşaları təqdim olundu.

Martın 10-da – Milli Teatr Günündə festival çərçivəsində nümayiş olunan tamaşalarla yanaşı, ümumilikdə milli teatrımızın inkişafına töhfə verən səhnə, sənət təmsilçilərinin mükafatlandırılması da olacaq.

**Həmidə**

# Mədəniyyət Nazirliyi ilə AYB arasında əməkdaşlıq müzakirə olunub

Mədəniyyət nazirinin birinci müavini, nazir vəzifəsini icra edən Adil Kərimli martın 2-də Azərbaycan Yazıçılar Birliyində (AYB) qurumun rəhbərliyi ilə görüşüb.



Adil Kərimli mədəniyyətimizin dayanıqlı inkişafı məqsədilə həyata keçirilən islahatlardan danışıb, görüşün əsas məqsədinin qurumun rəhbərliyi ilə fikir mübadiləsi aparmaq, sahələr üzrə onların təkliflərini dinləmək olduğunu bildirib.

Görüşdə Mədəniyyət Nazirliyi ilə AYB arasında əməkdaşlığın genişləndirilməsi, peşəkar kadr hazırlığı, kitab və kitabxana sahəsindəki çətinliklərin aradan qaldırılması və digər məsələlərlə bağlı müzakirə aparılıb.

# Uşaq İncəsənət Festivalına qeydiyyat davam edir

Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Mədəniyyət Nazirliyi, Elm və Təhsil Nazirliyi və Heydər Əliyev Mərkəzinin birgə təşkil etdiyi Uşaq İncəsənət Festivalına qeydiyyat davam edir.




Festivala 21 nominasiya üzrə istedadına, bacarığına güvənən 6-17 yaş arası hər kəs qatıla bilər. Müstəqillik tarixində respublikamızda təşkil olunan ən irimiqyaslı uşaq festivalı həm peşəkar (sahə üzrə tədris müəssisələrində təhsil alanlar), həm də həvəskar (kurslarda, dərnəklərdə və ya fərdi qaydada məşğul olanlar) kateqoriyalar üzrə üç yaş qrupunda (6-9 yaş, 10-13 yaş və 14-17 yaş) keçiriləcək.

İştirakçıların qeydiyyatı 20 fevral – 30 mart tarixinədək www.uif.az internet saytı üzərindən aparılır. 9 mart tarixinədək müxtəlif şəhər və rayonlar üzrə 5400-dən çox uşaq qeydiyyatdan keçib.

Uşaqlarda mədəniyyətin müxtəlif sahələrinə maraq oyadılması, yaradıcılıq qabiliyyətlərinin inkişaf etdirilməsi, yeni istedadların üzə çıxarılması və dəstəklənməsinə xidmət edən festival üç mərhələdən ibarətdir.

Rayon (şəhər) mərhələsi 2023-cü ilin aprel-iyun aylarında keçiriləcək. Bu mərhələdə qalib olanlar iyun-avqust aylarında keçiriləcək zonalar üzrə ikinci mərhələdə iştirak hüququ qazanacaq. İkinci mərhələdə fərqlənən iştirakçılar finala vəsiqə əldə edəcək. Festivalın final mərhələsinin sentyabr ayında Bakı şəhərində təşkil olunması nəzərdə tutulur.

Əlavə məlumatları festivalın internet saytı, (050) 2880147 mobil, 147 qısa nömrələri, həmçinin festivalın rəsmi sosial şəbəkə hesabları vasitəsilə əldə etmək mümkündür.

# Milli Muğam Müsabiqəsi keçiriləcək

## Qaliblər Azərbaycanı 6-cı Beynəlxalq Muğam Festivalında təmsil edəcək...

Heydər Əliyev Fondunun təşəbbüsü ilə Milli Muğam Müsabiqəsi elan olunub. Müsabiqə 24-27 aprel tarixlərində Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı, Elm və Təhsil Nazirliyinin, Azərbaycan Milli Konservatoriyasının dəstəyi ilə keçiriləcək.




Milli Muğam Müsabiqəsinə qeydiyyat aprelin 10-dək aparılacaq. Musiqi yarışmasında yaşı 18-dən 35-dək olan xanəndə və instrumental ifaçılar iştirak edə bilər. Qeydiyyat zamanı hər iştirakçı muğam ənənəsinin zənginliyi və rəngarəngliyini əks etdirən solo və müşayiətlə canlı ifa edəcəyi proqram barədə məlumat təqdim etməlidir. İştirak ərizələri elektron formatda office@spaceofmugam.az ünvanına göndərilməlidir. Ərizədə iştirakçının adı, soyadı, doğum tarixi, əlaqə nömrələri, elektron poçt ünvanı, yaradıcılığı və ifa edəcəyi proqram barədə məlumat, müşayiət edən heyət üzvlərinin adları qeyd olunmalıdır. Ətraflı məlumat üçün WhatsApp nömrələri: (070) 233 73 78, (070) 663 80 80.

Müsabiqə ilkin seçim və iki əsas turdan ibarət olacaq. Yarışmaya vəsiqə qazanan iştirakçılar aprelin 20-də elan ediləcək. Yarışmanın 1-ci turu 24-25 apreldə, 2-ci turu isə 26-27 apreldə keçiriləcək.

Aprelin 27-də xanəndə və instrumental ifa kateqoriyaları üzrə qaliblər seçiləcək. Hər iki kateqoriyada 1, 2 və 3-cü yerlər üzrə qaliblər müvafiq olaraq 7 000, 5 000 və 3 000 AZN mükafat qazanacaq.

Milli Muğam Müsabiqəsinin qalibləri ölkəmizi "Muğam aləmi" 6-cı Beynəlxalq Muğam Festivalında təmsil edəcək.

Heydər Əliyev Fondunun təşəbbüsü ilə 2009-cu ildən milli muğam müsabiqələri və beynəlxalq muğam festivalları təşkil olunur. Bu layihələr milli sərvətimiz olan muğamı dünya mədəniyyəti kontekstində bir daha nümayiş etdirmək və yaşatmaq məqsədi daşıyır.

# TÜRKSOY Yazarlar Birliyi təsis olunub

## Qazaxıstan Yazıçılar Birliyinin rəhbəri qurumun ilk sədri seçilib



Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY daha bir layihəyə ev sahibliyi edib. Martın 6-da qurumun təşəbbüsü və təşkilatçılığı ilə TÜRKSOY Yazarlar Birliyi təsis olunub.

TÜRKSOY-un baş katibi Sultan Raevin də qatıldığı tədbirdə Qazaxıstan Yazıçılar Birliyinin sədri Uluqbek Esdaulet, Qırğızıstan Yazıçılar Birliyinin sədri Nurlanbek Kalıbekov, Özbəkistan Yazıçılar Birliyinin sədri Sirojiddin Seyid, Azərbaycan Yazıçılar Birliyinin beynəlxalq əlaqələr üzrə katibi Səlim Babullaoğlu, Türkiyə Yazıçılar Birliyi İdarə Heyətinin üzvü Mahmut Erdemir, Avrasiya Yazarlar Birliyinin sədri Yakup Ömeroğlu və Türkmənistanın Ankaradakı Səfirliyinin ikinci katibi Handurdi Turayev iştirak ediblər.

Baş katib qeyd edib ki, birliyin yaradılmasında əsas məqsəd türk coğrafiyasında yaşayan yazıçı və şairlərin bir-birini tanıması, ədəbi əlaqələrin təbliğinə zəmin yaratmaqdır: "TÜRKSOY bütün türk xalqlarının mədəniyyətinə möhkəm körpü olmaq, ədəbiyyat və mədəniyyət vasitəsilə bir-birinə yaxınlaşdırmaq, onları birliyə, həmrəyliyə dəvət etmək üçün var gücü ilə çalışır. Türk mədəniyyətinin lokomotivi ədəbiyyatdır. TÜRKSOY-un baş katibi olaraq mənim ən mühüm vəzifələrimdən biri də Türk dünyası sivilizasiyalarını bir-birinə yaxınlaşdırmaq, onların ünsiyyətini gücləndirməkdir. Əsas şüarımız isə dildə, fikirdə, işdə birlikdir".

Digər çıxış edənlər təsis etdikləri qurumların fəaliyyətindən və TÜRKSOY tərəfindən qardaş xalqların ədəbiyyatının inkişafına və təbliğinə göstərilən diqqətdən danışıb, yeni birliyin Türk coğrafiyasında ədəbi düşüncənin tərəqqisinə yeni təkan olacağını vurğulayıblar.

Sonda TÜRKSOY Yazarlar Birliyinin yaradılması haqqında sənəd iştirakçılar tərəfindən imzalanıb.

Qazaxıstan Yazıçılar Birliyinin rəhbəri Uluqbek Esdaulet TÜRKSOY Yazarlar Birliyinin ilk sədri seçilib. Yeni birliyin ilk toplantısının bu ilin mart ayının sonunda Özbəkistanda keçirilməsi qərara alınıb.

**Mehparə Sultanova**
**Ankara**

№18-19 (1988)
10 mart 2023
www.medeniyyet.az

# Səudiyyə şahzadəsi işğaldan azad edilmiş ərazilərdə olub

*əvvəli səh. 1-də*

Qonaq sonra Merdinli kəndində erməni barbarlığı ilə tanış olub. Bildirilib ki, erməni vandalları kənd məsciddən mal-qara tövləsi kimi istifadə etməklə, azərbaycanlılara qarşı öz nifrətlərini nümayiş etdiriblər. Kəndinqəbiristanlığı da vandalizmə məruz qalıb – məzarlar dağıdılıb, məzar daşları uçurulub.

Turki əl-Faysal Füzuli rayonunda bərpa işləri həyata keçirilən Aşağı Köndələnçay su anbarı ilə də tanış olub. Qonaq Füzuli şəhərinin mərkəzində də erməni vəhşiliyinin mənzərəsini öz gözləri ilə görüb. Ona şəhərin bərpası istiqamətində görüləcək işlər barədə məlumat verilib.



Martın 8-də Şuşaya səfər edən Kral Faysal İslam Araşdırmalar Mərkəzinin rəhbəri Turki əl-Faysal əl-Səud şəhərdəki tarixi-mədəni abidələrimizlə tanış olub. Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov qonağa Ermənistan silahlı qüvvələrinin qədim şəhərdə törətdiyi vəhşiliklər haqqında məlumat verib.

Saatlı və Yuxarı Gövhər ağa məscidlərini ziyarət edən qonağa işğal illərində bu dini ocaqların məruz qaldığı dağıntılar, həmçinin hazırda orada aparılan bərpa işləri barədə məlumat verilib. Səudiyyə şahzadəsi Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvan, Bülbül və Üzeyir Hacıbəylinin erməni barbarları tərəfindən güllələnmiş heykəllərinə də baxıb.

Qonaq Cıdır düzünün füsunkar mənzərəsi fonunda, şəhərin qala divarları önündə xatirə şəkilləri çəkdirib.

# Sumqayıt teatrı iki yubileyi bir arada qeyd edir



Sumqayıt Dövlət Dram Teatrı Azərbaycan peşəkar milli teatrının yaranmasının 150 illik yubileyini və özünün 55 illiyini silsilə tədbirlərlə qeyd edir.

Yaradıcı heyət 10 mart – Milli Teatr Günündə Üzeyir Hacıbəylinin "O olmasın, bu olsun" musiqili komediyası ilə tamaşaçılara bayram ovqatı, bol təbəssüm bəxş edəcək. Tamaşaya Əməkdar artist Namis Şirməmmədov quruluş verib.

Sumqayıt teatrı əlamətdar yubileylərlə bağlı incəsənətimizin yeniyetmə və gənclər arasında təbliğinə də diqqət ayırır.

Martın 4-də bir qrup yeniyetmə üçün teatra ekskursiya təşkil edilib. Teatrla tanışlıq zamanı onlara direktor müavini Əməkdar artist Vidadi Məmmədov, baş rejissor, Xalq artisti Firudin Məhərrəmov, baş inzibatçı Nizami Mirzəyev bələdçilik ediblər. Ziyarətçilər qrim otaqlarına, butafor, əlbəsə, dərzi sexlərinə baş çəkib, rəssam emalatxanasında eskizlərin hazırlanma prosesi ilə tanış olublar.

Martın 11-də Astrid Lindqrenin "Balaca və Karlsonun macəraları" tamaşasının nümayişi ilə bərabər daha bir qrup uşaq və gənc üçün ekskursiya təşkil olunacaq.

# Füzuli teatrında yeni tamaşaya baxış



Füzuli Dövlət Dram Teatrında 2023-cü ilin repertuar planı üzrə səhnələşdirilən Xaqani Əliyevin "Molla Nəsrəddin" tamaşasına ictimai baxış olub.

Tamaşanın quruluşçu rejissoru Nicat Mirzəzadə, quruluşçu rəssamı Ellinaz Balaşova, musiqi tərtibatçısı Ziyad Süleymanovdur. Molla Nəsrəddinin evlənmə hekayəsindən bəhs edən tamaşada şən musiqilər, rəqslər, maraqlı və gülməli hadisələr bir-birini əvəz edir.

Rolları Sehran Xanlarov, Asif Şirinov, İntizar Quliyeva, Şəlalə Nəsirova, Qaçaq Qarayev, Əli Hüseynov, Elçin Məmmədov, Emin Abışov, Vüqar Babayev, Vüsal Həsənov və başqaları ifa edib.

# YARAT-ın "İncə müşahidələr"i Saatlıda




Xəbər verdiyimiz kimi, YARAT Müasir İncəsənət Məkanı Saatlı Dövlət Rəsm Qalereyasında "İncə müşahidələr" adlı səyyar sərgi təşkil edib. Martın 1-dən 3-dək davam edən sərgi Mədəniyyət Nazirliyi, Sabirabad Regional Mədəniyyət İdarəsi (RMİ) və Saatlı Dövlət Rəsm Qalereyasının təşkilati dəstəyi ilə keçirilib.

Açılış mərasimində Saatlı Rayon İcra Hakimiyyətinin başçısı Elmir Bağırov, Sabirabad RMİ-nin rəisi Fərid Qurbanzadə, YARAT-ın baş kuratoru Fərəh Ələkbərli və sərginin kuratoru Zəhra Məmmədova, məktəblilər, rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

YARAT-ın İctimaiyyətlə əlaqələr departamentinin direktoru Hökumə Kərimova "İncə müşahidələr" səyyar sərgisi barədə məlumat verib. Bildirilib ki, sərginin əsas ideyası rəssamların gözü ilə gündəlik həyata başqa baxış bucağı təqdim etməkdir. Sərgi universal mövzular ətrafında düşüncələri əks etdirir. Bu mövzular zaman və məkan anlayışları, yaddaş və şəxsiyyət, sadə insan duyğuları və onun hekayələri, mədəniyyət və xalq dəyərləri ola bilər.

Sərgidə tanınmış və gənc müəlliflərin – Dadaş Adnanın çəkdiyi fotolar, Mehrin Əlili və Habib Saherin instalyasiyaları, Elturan Məmmədov, Ramal Kazım, Nadir Eminov, Soltan Soltanlı və Rəşad Babayevin rəsm əsərləri yer alıb.

# Xaçmaz, Qusar və Quba rayonlarında mədəniyyət müəssisələrinə baxış keçirilib





Regionlarda fəaliyyət göstərən mədəniyyət müəssisələrinin iş şəraiti və maddi-texniki bazasının mövcud vəziyyətinin yerində öyrənilməsi məqsədilə mədəniyyət nazirinin birinci müavini, nazir vəzifəsini icra edən Adil Kərimli Xaçmaz, Qusar və Quba rayonlarında olub.

Xaçmaz rayonundakı Heydər Əliyev Mərkəzinə, uşaq musiqi və incəsənət məktəblərinə, muzey və klublara, kitabxanalara baxış keçirilib. Yaradılan şəraitdən səmərəli istifadə olunması, nəticəyönümlü fəaliyyət və işin müasir tələblər səviyyəsində qurulmasının vacibliyi diqqətə çatdırılıb.

Qusar rayonunda Uşaq incəsənət məktəbi, Mərkəzləşdirilmiş Kitabxana Sistemi (MKS) və onun 43 kənd və qəsəbə kitabxana filialları, Rəsm Qalereyası, Tarix-Diyarşünaslıq Muzeyi, Mədəniyyət Mərkəzi, eləcə də 14 Mədəniyyət evi və 38 klub fəaliyyət göstərir. Rayondakı mədəniyyət müəssisələrinin bir qismi və tarixi irsimizi əks etdirən tikililərə baxış keçirilib. İşlək mexanizmlərin tətbiqi üçün bölgəyə xas olan yaradıcılıq istiqamətlərinin stimullaşdırılması ilə bağlı tapşırıqlar verilib. Qusar rayonunun Əniq kəndi ərazisindəki XIII əsrə aid qala divarlarının qalıqları və məscidə də baxış keçirilib.

Quba Heydər Əliyev Mərkəzindəki təmir işlərinin gedişatı ilə maraqlanılıb, Yaşıl teatr və Bayraqlar muzeyinə, eləcə də "Günbəzli hamam"a baxış keçirilib. XVIII-XIX əsrlərə aid edilən hamamın tanıdılması və mühafizəsinin təşkili ilə bağlı müvafiq göstərişlər verilib.

# Tarix yaradan şəxsiyyət

Bölgələrdə fəaliyyət göstərən mədəniyyət müəssisələrində "Heydər Əliyev İli" tədbirləri davam edir.





Beyləqan rayon Heydər Əliyev Mərkəzində Ulu öndərin 1998-ci il martın 26-da imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" fərmanının tarixi əhəmiyyətinə həsr olunmuş konfrans keçirilib. Çıxışlarda vurğulanıb ki, məhz bu fərmanla ermənilər tərəfindən Azərbaycan xalqına qarşı illər boyu həyata keçirilən soyqırımı faktlarına, o cümlədən 1918-ci ilin mart qırğınlarına siyasi qiymət verilib, 31 mart Azərbaycanlıların Soyqırımı Günü elan edilib.

Beyləqan rayon Mədəniyyət Mərkəzi, Bünyadlı kənd Mədəniyyət evi və tam orta məktəbinin birgə təşkilatçılığı ilə "Sən elə bir zirvəsən" adlı tədbir keçirilib. Çıxış edənlər Heydər Əliyevin respublikaya rəhbərliyinin hər iki dövründə Azərbaycanın iqtisadi, mədəni inkişafı istiqamətində gördüyü işlər barədə söz açıblar.

***

Şəki şəhər Heydər Əliyev Mərkəzində "Heydər Əliyev və Azərbaycan səhiyyəsi" mövzusunda tədbir keçirilib. Qeyd olunub ki, Ulu öndər səhiyyə sektorunun inkişafına xüsusi önəm verib, tibb işçilərinə böyük qayğı göstərib və çıxışlarında həkimlik peşəsinin öz xalqına, sənətinə yüksək sədaqət tələb edən bir iş olduğunu vurğulayıb. Sonda "Heydər Əliyev və Azərbaycan səhiyyəsi" adlı videoçarx nümayiş etdirilib.

***

Salyan rayon Heydər Əliyev Mərkəzində "Ümummilli lider Heydər Əliyevin Azərbaycanda aqrar sahənin formalaşmasında rolu" mövzusunda tədbir keçirilib. Tədbir iştirakçıları mərkəzi ziyarət edib, Ulu öndərin həyat yolu və dövlətçilik irsini əks etdirən fotostendlərlə tanış olublar.

***

Masallı rayon Mərkəzi Kitabxanası və Masallı Təhsil sektorunun təşkilatçılığı, rayon İcra Hakimiyyətinin təşəbbüsü ilə "Heydər Əliyev irsinin öyrənilməsi" mövzusunda növbəti tədbir keçirilib. Tədbirdə Bəxtiyar Şiriyev adına Mollaoba kənd tam orta məktəbinin 9,10 və 11-ci sinif şagirdləri iştirak edib.

***

Goranboy rayon MKS-nin şəhər kitabxana filialı "Ulu öndər Heydər Əliyevin kitaba verdiyi dəyər" adlı kitab sərgisi təşkil edib.

***

Qazax rayon Heydər Əliyev Mərkəzi və "Gəncliyin Təşəbbüsü" Maarifləndirmə İctimai Birliyinin birgə təşkilatçılığı ilə "Heydər Əliyev və Azərbaycan idmanı" mövzusunda diskussiya klubu keçirilib. Görüşdə Ulu öndərin idman sahəsinə göstərdiyi qayğıdan söz açılıb, gənclərə sağlam həyat tərzi və pis vərdişlərdən uzaq olmaları tövsiyə edilib.

***

Tərtər rayon Heydər Əliyev Mərkəzi və R.Almuradov adına Ələsgərli kənd tam orta məktəbin birgə əməkdaşlığı çərçivəsində "Tarix yaradan şəxsiyyət – Heydər Əliyev" adlı şeir müsabiqəsi keçirilib. Şagirdlərdən Aysu Xəlilova I, Zəhra Musayeva II, Səadət Məmmədli isə III yerə layiq görülüb. Qaliblər diplom və hədiyyələrlə mükafatlandırılıb.

***

Ağdam rayon Heydər Əliyev Mərkəzində keçirilən tədbirdə Ümummilli liderin həyat yolu və siyasi fəaliyyətini əks etdirən film nümayiş etdirilib.





Hacıqabul rayon Heydər Əliyev Mərkəzində "Heydər Əliyevin portreti rəssamların fərdi sərgilərində" layihəsi çərçivəsində hacıqabullu gənc rəssam Şəms Abuzərlinin fərdi sərgisi açılıb.

***

Zərdab rayon Heydər Əliyev Mərkəzi, Gənclərin İnkişaf və Karyera Mərkəzi Zərdab nümayəndəliyi və Çallı kənd tam orta məktəbinin birgə təşkilatçılığı ilə "Azərbaycana fəda edilmiş şərəfli ömür – Heydər Əliyev ömrü" adlı tədbir keçirilib.

***

# Dünyada ən uca zirvə anadır

## Beynəlxalq Qadınlar Günü münasibətilə tədbirlər keçirilib



İsmayıllı rayon F.Əzimov adına Uşaq incəsənət məktəbində "Heydər Əliyev və dövlət qadın siyasəti" mövzusunda tədbir keçirilib. Qeyd olunub ki, Azərbaycanda qadınların ictimai fəallığının təşkili məsələsi, mədəniyyət və incəsənət sahəsində çalışan qadınların fəallığının artırılması Heydər Əliyev tərəfindən diqqət mərkəzində saxlanılıb. Tədbirdə şagirdlərin ifasında konsert proqramı təqdim edilib.

***

Ucar Tarix-Diyarşünaslıq Muzeyinin əməkdaşları tərəfindən 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə şəhid ailələri ziyarət edilib.

Zərdab rayon Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə "Zəfər Gününün qadın qəhrəmanları" başlığı altında şəhid anaları ilə görüş keçirilib. Mərkəz tərəfindən şəhid analarına və digər ailə üzvlərinə hədiyyələr təqdim olunub.

***

Salyan Dövlət Rəsm Qalereyasında Beynəlxalq Qadınlar Günü münasibətilə balaca rəssamların əl işlərindən ibarət "Fədakar qadınlar" adlı sərgi açılıb.

***

Sabirabad rayon Heydər Əliyev Mərkəzi və rayon Tarix-Diyarşünaslıq Muzeyinin birgə təşkilatçılığı ilə "Heydər Əliyev və Azərbaycanda qadın siyasəti" mövzusunda tədbir keçirilib. Qeyd olunub ki, Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra dövlət tərəfindən qadın hərəkatına qayğı və dəstək güclənib, ictimai-siyasi, iqtisadi, mədəni həyatın fəal iştirakçısı olan Azərbaycan qadınının cəmiyyətdə rolu xeyli artıb. Tədbirin sonunda istedadlı qadınların əl işlərindən ibarət "Bacarıqlı əllər" sərgisinə baxış olub.

Şirvan şəhər Uşaq musiqi məktəbində qadınların bayramı münasibətilə konsert keçirilib. Məktəbin müəllim və şagird kollektivinin ifasında musiqi nömrələri maraqla qarşılanıb.

***

Quba rayon MKS-nin Mərkəzi Kitabxanasının oxu zalında "Dünyada ən uca zirvədir ana" adlı tədbir keçirilib.

***

Bərdə rayon Mədəniyyət Mərkəzində "Cənnətimin günəşi" adlı ədəbi-bədii gecə təşkil edilib. Mərkəzin nəzdində fəaliyyət göstərən Bərdə Xalq teatrının hazırladığı "Ağarmış saçlar" tamaşası nümayiş olunub. Çıxış edənlər bildiriblər ki, analar doğma yurdu müqəddəs bilən, milli ideallara sadiq övladlar yetişdirib. Bu nəsil 44 günlük Vətən müharibəsində rəşadəti ilə xalqımızın mübarizlik rəmzinə çevrilib.

***

Masallı rayon Heydər Əliyev Mərkəzində də "Heydər Əliyev və dövlət qadın siyasəti" mövzusunda tədbir təşkil edilib. Tədbirdə mədəniyyət sahəsində fəaliyyəti ilə seçilən xanımlara Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Masallı rayon komitəsi tərəfindən hədiyyələr təqdim olunub.

***



Gəncə şəhər 4 nömrəli Uşaq musiqi məktəbində keçirilən tədbirdə şagirdlər rəngarəng musiqi nömrələri ilə çıxış ediblər.

Goranboy rayon Mədəniyyət Mərkəzinin Şəfəq kənd Mədəniyyət evində şəhid ailələrinin iştirakı ilə "Qəhrəman ana" adlı tədbir keçirilib. Çıxış edənlər dövlətimizin əsaslarının möhkəmləndirilməsində, ölkəmizin hərtərəfli inkişafında, eyni zamanda ərazi bütövlüyümüzün təmin olunması uğrunda canından keçmiş Vətən oğullarının yetişməsində Azərbaycan qadınının rolundan söz açıblar.

**Hazırladı: N.Məmmədli**

# Azərbaycan bəstəkarlıq məktəbinin inkişafında Heydər Əliyevin rolu

Ümummilli lider Heydər Əliyevin 100 illiyi münasibətilə Azərbaycan Bəstəkarlar İttifaqının (ABİ) da geniş tədbirlər planı var. Martın 3-də bu silsilədən "Azərbaycan bəstəkarlıq məktəbinin inkişafında Heydər Əliyevin rolu" mövzusunda elmi konfrans keçirildi.

İttifaqın sədri Xalq artisti, AMEA-nın müxbir üzvü Firəngiz Əlizadə konfransı açaraq Heydər Əliyevin respublikaya rəhbərliyinin hər iki dövründə milli və professional musiqinin inkişafına, o cümlədən bəstəkar və musiqişünasların yaradıcılığına diqqət və qayğısından bəhs etdi. Diqqətə çatdırdı ki, bu qayğı musiqi sənətimizin inkişafına mənəvi zəmin yaradıb, bu sahədə çalışanları yaradıcılığa ruhlandırıb.

Firəngiz Əlizadə Ulu öndərin musiqiçilərlə görüşlərinin birində mahnı janrı haqqında dediyi sözləri yada saldı: "Dinləyicilərin xoşuna gələn yaxşı mahnı az deyildir. Lakin bununla birlikdə elə mahnılar vardır ki, nə musiqisi yadda qalır, nə də sözləri. Mahnı musiqidə ən kütləvi janrdır. Buna görə də ona daim ciddi fikir verilməlidir. Bütün mahnılar yaxşı olmalıdır, xalqın qəlbinə və şüuruna yol tapmalıdır...".

Ümummilli liderin Qara Qarayev, Fikrət Əmirov, Tofiq Quliyev kimi görkəmli bəstəkarlarla olan səmimi dostluq münasibətlərindən, bəstəkarlara verdiyi tövsiyələrdən də söhbət açan ABİ-nin sədri "Heydər Əliyev – 100" silsiləsindən növbəti tədbirlərdə musiqişünasların mövzu ilə bağlı tədqiqatlarının və bəstəkarların Heydər Əliyevə həsr olunan əsərlərinin təqdimatlarının, konsertlərinin keçiriləcəyini dedi.

ABİ-nin katibi Əməkdar incəsənət xadimi, professor Zemfira Qafarova "Azərbaycan bəstəkarlarının yaradıcılığında Heydər Əliyev" mövzusunda çıxış etdi. Diqqətə çatdırdı ki, Ulu öndər müəllif və yubiley gecələrində, bəstəkarların yeni səhnə və konsert əsərlərinin premyeralarında daim iştirak edər, musiqi əsərləri haqqında dəyərli fikir və mülahizələr söyləyərdi. Heydər Əliyev respublikamıza 30 ildən artıq rəhbərliyi dövründə Bəstəkarlar İttifaqının fəaliyyəti ilə daim maraqlanıb. Bütün bunlar Heydər Əliyevin qayğıkeşliyinin və Azərbaycan musiqisini qəlbən sevdiyinin bariz nümunəsidir.



ABİ-nin katibi Əməkdar incəsənət xadimi, professor Cəlal Abbasov isə məruzəsində Ulu öndərin bəstəkarlarla görüşündə simfonik musiqi janrlarının əhəmiyyətini xüsusi vurğuladığını diqqətə çatdırdı. "Simfonik musiqi sahəsində müvəffəqiyyətlər daha çoxdur. Lakin istərdik ki, bu müvəffəqiyyətlər əsasında siz daha yüksəklərə qalxasınız və daha çox proqramlı musiqi əsərləri yazasınız. Bir çox bəstəkarlarımız simfoniya yaradıcılığında doğru yoldadır, təcrübə, vərdiş qazanmışlar və əminik ki, bizə yeni kamil əsərlər verəcəklər", – deyə belə görüşlərin birində bildirmişdi.

Qeyd olundu ki, başqa sənət adamları kimi, Azərbaycan bəstəkarları da dərin hörmət və ehtiram əlaməti olaraq Heydər Əliyevə müxtəlif janrlarda dəyərli əsərlər həsr ediblər. Bu əsərlər arasında görkəmli bəstəkarlardan Cövdət Hacıyevin 8 saylı simfoniyasını, Arif Məlikovun "Əbədiyyət" adlı simfoniyasını, Vasif Adıgözəlovun "Azərbaycan" kantatasını, Ramiz Mirişlinin "Məşəl kimi yanan ürək" adlı odasını, Sərdar Fərəcovun "Böyük vətəndaş haqqında oda"sını göstərmək olar.

Elmi konfransda daha sonra sənətşünaslıq üzrə fəlsəfə doktorları Jalə Qulamova "Naxçıvan Bəstəkarlıq Təşkilatının yaradılmasında Heydər Əliyevin rolu", Əməkdar mədəniyyət işçisi Səadət Təhmirazqızı "Heydər Əliyevin dahi bəstəkarımız Üzeyir Hacıbəyli haqqında fikirləri", Leyla Zöhrabova "Cövdət Hacıyevin Heydər Əliyevə həsr olunmuş "Onu zaman seçib" simfoniyası haqqında" mövzulu məruzələrlə çıxış ediblər.

Konfrans Xalq artisti Azər Dadaşovun Ümummilli lider Heydər Əliyevin 100 illiyinə həsr etdiyi qiraətçi və simfonik orkestr üçün 16 saylı simfoniyasının səsləndirilməsi (elektron səslənmə) ilə başa çatdı.

**Savalan Fərəcov**

# Filarmoniyada konsert – "Sən elə bir zirvəsən"

Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında beynəlxalq müsabiqələr laureatı xanəndə Könül Məmmədlinin Ümummilli lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş "Sən elə bir zirvəsən" adlı konserti təşkil olunub.

Konsertdə Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestri (bədii rəhbər və baş dirijor – Xalq artisti Ağaverdi Paşayev) Əməkdar artist, dirijor İlahə Hüseynovanın rəhbərliyi ilə çıxış edib.

Konsertdə Musa Mirzəyevin "Azərbaycan rəqsi", Firəngiz Babayevanın "Töhfə", Nazim Quliyevin "Heyf", Oqtay Kazımının "Məhəbbət", "İnanmaram", Hacı Xanməmmədovun "Aldatmayaq bir-birimizi", Cahangir Cahangirovun "Füzuli kantatası"ndan fraqment, Vasif Adıgözəlovun "Bayram süitası", Ramiz Mirişlinin "Bir xumar baxışla", Kamalın "Xalq Heydər söyləyəcək" və digər bəstəkarların əsərləri ilə yanaşı, xalq mahnıları da səsləndirilib.



# "Ustad xatirələrdə" kitabının təqdimatı

Görkəmli xanəndə, bəstəkar və pedaqoq, Xalq artisti Əlibaba Məmmədovun (1929-2022) xatirəsinə həsr olunmuş "Ustad xatirələrdə" kitabı çapdan çıxıb.



Martın 3-də Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyində "İrsimizin Tədqiqi və Təbliği" İctimai Birliyinin birgə təşkilatçılığı ilə kitabın təqdimatı keçirildi.

Kitabın müəllifi sənətşünaslıq üzrə fəlsəfə doktoru, Əməkdar mədəniyyət işçisi Səadət Təhmirazqızıdır.

Müəllif çıxış edərək muğam ustadının Azərbaycan milli musiqisinin inkişafında xidmətlərindən danışdı. Dedi ki, Əlibaba Məmmədov milli ifaçılıq sənətinin inkişafına mühüm töhfələr verib, yeni xanəndələr nəsli yetişdirib, eyni zamanda bəstələdiyi mahnı və təsniflərlə musiqi tariximizdə silinməz iz qoyub. Xanəndənin ifasında "Bayatı-Şiraz", "Dəşti", "Şur" və başqa muğam və təsniflər Azərbaycan Radiosunun "Qızıl fondu"nda qorunub saxlanılır. Əlibaba Məmmədov həm də 100-dən çox mahnı və təsnifin müəllifidir.

Bildirildi ki, kitabda sənət adamlarının Əlibaba Məmmədovun şəxsiyyəti və musiqi mədəniyyətimizə verdiyi töhfələr haqqında düşüncələri yer alıb.

Sonra unudulmaz xanəndənin yaradıcılığına həsr edilmiş "Bizim ustad" sənədli filmi nümayiş olundu. Nümayişdən sonra Xalq artisti, tarzən Ramiz Quliyev sənətkarla bağlı xatirələrini bölüşdü.

Tədbirdə Əlibaba Məmmədovun ailə üzvləri, sənət dostları, tələbələri, muğam ifaçıları iştirak edirdilər.

**Lalə**

# "Nəğməmə inan" tamaşası mart ayında da səhnədədir



Azərbaycan Dövlət Akademik Musiqili Teatrında Xalq artisti, bəstəkar Polad Bülbüloğlunun musiqiləri əsasında hazırlanan və premyerası müəllifin doğum günündə (4 fevral) olan "Nəğməmə inan" tamaşası mart ayında da repertuardadır.

Teatrın rus bölməsində ərsəyə gələn musiqili komediya martın 8-də – xanımların bayramında nümayiş olunub. Tamaşa martın 11-də növbəti dəfə teatrsevərlərə təqdim olunacaq.

Teatrın baş rejissoru Cavid İmamverdiyevin quruluş verdiyi səhnə əsərinin librettosunun və mahnıların mətninin müəllifi Mixail Şerbaçenko, quruluşçu dirijoru Əməkdar incəsənət xadimi Fəxrəddin Atayev, quruluşçu rəssamı Vüsal Rəhim, quruluşçu baletmeysteri Əməkdar artist Nigar Şahmuradova, xormeysteri Əməkdar artist Vaqif Məstanovdur.

Rolları Əməkdar artistlər Boris Qrafkin, Fərid Əliyev, Nərgiz Kərimova, aktyorlar Emil Heydərov, Mehriban Zaliyeva, Rauf Babayev və Leonid Klyotc ifa edir.

Xatırladaq ki, vaxtilə Rusiyanın bir neçə teatrında oynanılan bu əsərin radio-tamaşasında baş rolu Polad Bülbüloğlu özü səsləndirib.

# Violonçel ifaçısının "Solo"su

Beynəlxalq Muğam Mərkəzində (BMM) Azərbaycanın Əməkdar artisti, tanınmış violonçel ifaçısı Aleksey Miltıxın "Solo" adlı konserti keçirildi.



Bakıdakı Rusiya İnformasiya və Mədəniyyət Mərkəzinin təşkilatçılığı və BMM-in dəstəyi ilə reallaşan gecədə ifaçı ilə bərabər ayrı-ayrı musiqi nömrələrində sənətçi dostları, o cümlədən "The Passion" kvarteti də səhnəyə çıxdı.

Konsert proqramı elə həmahəng tərtib olunmuşdu ki, A.Miltıxın məxsusi ifaçılıq texnikasındakı zəriflik, melanxoliklik, bəzənsə "sərtlik" duyulurdu.

Müxtəlif zamanlara məxsus əsərlərin bir xətdə ustalıqla birləşərək vahid tablo yaratması xoş idi. İfaçının texniki ustalığını, interpretasiya qabiliyyətini xüsusi qeyd etməliyik. Çünki bu, hər bir əsərdə, həqiqətən də, fərqli təzahür edirdi.

Gecədə sənət dostları ifaçını tək qoymadı. Müxtəlif violin və fortepiano ilə duetlər, rəqs nömrələrinin təqdimi proqramı daha da zənginləşdirdi. Musiqi axşamı tamaşaçılara unudulmaz duyğular bəxş etdi. Onlar da aldıqları enerjini, alqışları ilə qarşılamağa çalışdılar.

**L.Azəri**

# Üç ölkənin opera solistləri eyni səhnəni bölüşəcəklər

Martın 11-də Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında Cakomo Puççininin "Toska" operası nümayiş olunacaq.

Toska partiyasını ifa etmək üçün teatrın rəhbərliyi tərəfindən Ukrayna Milli Operasının solisti, bu ölkənin Əməkdar artist Viktoriya Çenskaya və Skarpia rolu üçün isə Belarus Akademik Böyük Teatrının solisti, Xalq artisti Vladimir Qromov dəvət olunublar. Əsas partiyalardan biri olan Kavaradossini Əməkdar artist Azər Rza, Rizniçiy partiyasını Xalq artist Əkrəm Poladov ifa edəcəklər.

Səhnə əsərində həmçinin Əməkdar artistlər Cahangir Qurbanov, Tural Ağasıyev, solistlər Mahir Tağızadə, Rza Xosrovzadə və başqaları iştirak edəcəklər.

Opera teatrın baş dirijoru, Əməkdar artist Əyyub Quliyev tərəfindən idarə olunacaq.

"Heydər Əliyev İli"

# Mədəniyyətimizin böyük hamisi



Ümummilli lider Heydər Əliyev böyük siyasətdə olduğu bir qərinədən artıq dövrdə, doğma xalqının taleyində tarixi rol oynamaqla bərabər, mədəni irsimizin qorunması və zənginləşdirilməsi, milli incəsənətin, ədəbiyyatın inkişafı, respublikada mədəni-maarif işinin qabaqcıl səviyyədə təşkili sahəsində də müstəsna xidmətlər göstərib.

Heydər Əliyevin mədəniyyətə diqqət və qayğısı onun dövlət xadimi kimi fəaliyyətinin bütün mərhələlərində – sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə, Moskvada, SSRİ rəhbərliyində çalışdığı vaxtda və müstəqil Azərbaycana onillik prezidentliyi dövründə tarixin yaddaşına çoxsaylı səhifələrlə yazılıb. O, hər zaman və hər yerdə Azərbaycan mədəniyyətinin böyük hamisi olub. Bununla bağlı illərin xronikasından seçdiyimiz məqamları "Heydər Əliyev İli"nə töhfə olaraq diqqətinizə təqdim edirik...

## İllərin xronikasından (18)

### 1979-cu il 6 yanvar

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi "Azərbaycanın böyük şair və mütəfəkkiri Nizami Gəncəvinin ədəbi irsinin öyrənilməsini, nəşrini və təbliğini yaxşılaşdırmaq tədbirləri haqqında" qərar qəbul edib. Azərbaycan KP MK-nın Birinci katibi Heydər Əliyevin təşəbbüsü ilə qəbul edilən qərarda vurğulanırdı ki, Nizami irsinin tədqiq və təbliği ilə bağlı ötən illərdə başlanan işlər (o cümlədən Moskva nəşriyyatlarında şairin əsərlərinin və haqqında kitabların nəşri) son dövrlər xeyli zəifləyib.

*"...Respublikanın nəşriyyatları, elmi tədqiqat idarələri, yaradıcılıq ittifaqları Nizaminin ədəbi irsinə diqqəti bir qədər zəiflətmişlər ki, bunun da nəticəsində son illərdə onun əsərlərinin nəşri, əslində, dayandırılmışdır... Nizami yaradıcılığı sahəsində elmi tədqiqat işlərinin əlaqələndirilməsində və planlaşdırılmasında müəyyən bir sistem yoxdur. Nizaminin ədəbi irsi problemləri sahəsində işləmək üçün kadrlar hazırlanmasına lazımınca fikir verilmir. Mütəxəssislər Nizami yaradıcılığı, dünya ədəbiyyatında onun rolu ilə əlaqədar məsələlər barəsində mərkəzi və respublika qəzet və jurnallarının səhifələrində az-az çıxış edirlər ki, bu da bir sıra xarici nəşrlərdə və sovet nəşrlərində yanlış fikirlərin meydana gəlməsinə səbəb olur. Yazıçılar və alimlər şairin həyat və yaradıcılığı haqqında az elmi-kütləvi əsər yazırlar. Azərbaycan bəstəkarları və rəssamları Nizami yaradıcılığına nadir hallarda müraciət edirlər...*

*...Dövlətnəşrkoma, Elmlər Akademiyasına, Yazıçılar İttifaqına, Rəssamlar İttifaqına, Bəstəkarlar İttifaqına, respublikanın Mədəniyyət Nazirliyinə, Dövlət Kinematoqrafiya Komitəsinə, Azteleradioya, qəzet və jurnalların redaksiyalarına bir vəzifə olaraq tapşırılmışdır ki, Azərbaycanın böyük şair və mütəfəkkiri Nizami Gəncəvinin ədəbi irsinin öyrənilməsi, nəşri və təbliği işinin kökündən yaxşılaşdırılmasını təmin etsinlər.*

*Təsdiq edilmiş tədbirlər planında "Xəmsə"yə daxil olan bütün poemaları Azərbaycan və rus dillərində təshih edilmiş şəkildə yenidən nəşr etmək nəzərdə tutulur. Nizaminin bircildliyinin (Azərbaycan və rus dillərində), lirikasının (Azərbaycan, rus, ingilis, alman və fransız dillərində), hikmətli sözlərinin (Azərbaycan və rus dillərində) suvenir nəşrlərini buraxmaq nəzərdə tutulmuşdur...".*

Qərarda həmçinin Nizami əsərlərinin Azərbaycan və rus dillərində uşaqlar və gənclər üçün uyğunlaşdırılmış variantlarının buraxılması, şairin həyat və yaradıcılığından bəhs edən ikiseriyalı bədii filmin çəkilməsi, Nizami mövzularında ədəbi-bədii, musiqili, təsviri əsərlər və səhnə əsərləri yaradılması, Azərbaycan SSR EA-nın Nizami adına Ədəbiyyat İnstitutunda Nizaminin həyat və yaradıcılığını öyrənmək üçün xüsusi şöbənin yaradılması, iki ildə bir dəfə Moskvadan, Leninqraddan, müttəfiq respublikalardan və xarici ölkələrdən mütəxəssislərin iştirakı ilə Nizami konfranslarının keçirilməsi kimi məsələlər əksini tapmışdı.

### 1979-cu il 10 aprel

Heydər Əliyev Mirvarid Dilbaziyə Azərbaycanın "Xalq şairi" fəxri diplomunu təqdim edib.

### 1979-cu il 25 aprel

Azərbaycan KP MK-nın Birinci katibi Heydər Əliyev "Fəal həyat mövqeyinin formalaşdırılması: mənəvi tərbiyənin təcrübəsi və aktual problemləri" mövzusunda Ümumittifaq elmi-praktiki konfransda məruzə edib.

### 1979-cu il may

"Kommunist" jurnalının 8-ci nömrəsində Azərbaycan KP MK-nın Birinci katibi Heydər Əliyevin "Mənəvi tərbiyənin aktual məsələləri" başlıqlı məqaləsi dərc olunub.

### 1979-cu il 7 may

Heydər Əliyev Rusiyanın Taqanroq şəhərində 1941-1945-ci illər müharibəsində iştirak etmiş azərbaycanlılardan ibarət 416-cı motoatıcı diviziyanın şərəfinə ucaldılmış abidənin açılış mərasimində çıxış edib.

***

Mədəniyyət, incəsənət, ədəbiyyat xadimlərinin qabaqcıl fəaliyyəti və yaradıcılıq nailiyyətləri dövlət tərəfindən qiymətləndirilirdi.

### 1979-cu il 24 fevral

Ukrayna SSR-də Azərbaycan SSR ədəbiyyatı və incəsənəti günlərinin hazırlanmasında və keçirilməsində fəal iştirak etdiklərinə görə respublikanın bir qrup ədəbiyyat və incəsənət xadimi, mədəniyyət işçisi Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanı ilə təltif ediliblər.

### 1979-cu il 2 aprel

Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə respublikada özfəaliyyət rəqs sənətinin inkişafında xidmətlərinə görə Azərbaycan Konsert-Qastrol Birliyinin baletmeysteri Xumar Zülfüqarovaya "Xalq artisti" fəxri adı verilib.

***

Teatr sənətinin inkişafında xidmətlərinə görə Nəcəf bəy Vəzirov adına Lənkəran Dövlət Dram Teatrının üç əməkdaşı fəxri adlara (teatrın direktoru və baş rejissoru Məbud İsmayılzadə – Əməkdar incəsənət xadimi; artistlər Böyükxanım Əliyeva və Qabil Quliyev – Əməkdar artist) layiq görülüb, daha bir neçə nəfər isə Azərbaycan SSR Ali Sovetin Rəyasət Heyətinin Fəxri fərmanı ilə təltif edilib.

### 1979-cu il 19 aprel

Teatr və kino sənətinin inkişafında xidmətlərinə görə respublikanın Xalq artisti, professor Rza Təhmasib Azərbaycan SSR Ali Sovetinin Fəxri fərmanı ilə təltif edilib.

**Hazırladı: V.Orxan**

*(davamı var)*

№18-19 (1988)
10 mart 2023
www.medeniyyet.az

# 150 illik yubileydə 100 illik tarixə baxış

## Milli teatr sənətinin qayğıkeşi Heydər Əliyevin yarım əsr öncə söylədikləri indi də aktualdır...

10 mart Milli Teatr Günüdür. Bu gün Azərbaycanda peşəkar milli teatrın yaranmasının 150 illiyi tamam olur. Əlamətdar ildönümü bu günə təsadüf etsə də, yubiley tədbirləri ilin sonunadək davam edəcək. Çünki 150 il əvvəl zəngin tarixə malik xalq teatr ənənələrimizin, kökləri qədim folklorumuza bağlı səhnə sənətimizin peşəkar müstəviyə qədəm qoyması təkcə mədəniyyət tariximiz üçün deyil, ümumilikdə ictimai həyatımız üçün də müstəsna əhəmiyyətli hadisə idi.

Prezident İlham Əliyevin Azərbaycan peşəkar milli teatrının 150 illik yubileyi haqqında sərəncamında da vurğulandığı kimi, Azərbaycan teatrı həmişə fəal mövqeyi ilə seçilərək ictimai fikrin ön sıralarında dayanıb, cəmiyyətin mədəni tərəqqisinə və milli şüurun inkişafına əhəmiyyətli təsir göstərib. Ədəbi fikir tariximizin görkəmli nümayəndələri xalqa müraciət üçün teatr səhnəsindən yüksək xitabət kürsüsü kimi istifadə ediblər.

Azərbaycanda peşəkar milli teatrın yubileyi ilk dəfə dövlət səviyyəsində, böyük təntənə ilə yarım əsr öncə qeyd edilib. Düzdür, 100 illik yubiley bir il ertələmə ilə, 1974-cü ildə keçirilmişdi, amma bu, Azərbaycanın mədəniyyət tarixində o dövr üçün ən möhtəşəm yubiley mərasimi idi. Mədəniyyətimizin və incəsənətimizin böyük himayədarı, milli teatr sənətimizə hər zaman xüsusi qayğıkeşliklə yanaşan Heydər Əliyev mərasimdə geniş məzmunlu, proqram səciyyəli nitq söyləmişdi. Yarım əsr öncə deyilən o fikirlərin bir çoxu indi də aktualdır.

Azərbaycan peşəkar milli teatrının 100 illik tarixinə və həm də gələcək inkişafına nəzər salınan həmin nitqdən əsas fikirləri oxucuların diqqətinə təqdim edirik.



...Yüz il bundan əvvəl ictimai və dini köləliyin zülmət səltənətində Azərbaycan dram sənətinin ilk qığılcımı parladı. Mirzə Fətəli Axundovun "Lənkəran xanının vəziri" pyesinin tamaşası ilə Azərbaycan teatrının təməli qoyuldu.

Şərqdə ilk teatr olan Azərbaycan teatrı maarifçilik və azadlıq ideyalarının carçısına çevrildi, köhnə dünyanı dağıdıb alt-üst etməkdə mühüm rol oynadı. O, zamanın qatı qaranlığını yararaq parlaq gələcəyə yol açan, insanların şüurunu, qəlbini oyadan, onları azadlıq, səadət naminə hünərlər göstərməyə ruhlandıran bir məşəl idi... O, Azərbaycanda mütərəqqi ictimai fikrin təşəkkül və inkişafında fəal iştirak etmiş, öz xalqının mənəvi xəzinəsini zənginləşdirmiş... və indi də qabaqcıl ideya mövqelərində durmaqdadır.

Azərbaycan dram teatrının yüzillik yubileyi respublikamızın həyatında böyük mədəni və siyasi əhəmiyyətli hadisəyə, bütün çoxmillətli sovet teatrının bayramına çevrilmişdir.

Maksim Qorki gözəl demişdir ki, həyatın əsl tarixini sənət xadimləri yazırlar. Bu sözləri bilavasitə dram sənətinə də aid etmək olar. Azərbaycan xalqının ictimai zülmdən xilas olmaq uğrunda, tərəqqi uğrunda, yeni həyat uğrunda mübarizəsini əks etdirən Azərbaycan teatr sənətinin tarixi buna bariz sübutdur.

Teatrımız yeni dünya quruculuğunda bilavasitə iştirak etməyə başlayanadək bir çox illər boyu enişli-yoxuşlu yollarla getmiş, ağır sınaqlara məruz qalmış, xalqa zidd mürtəce qüvvələrə qarşı şiddətli ideoloji mübarizə aparmalı olmuşdu. Görkəmli mədəniyyət xadimləri Mirzə Fətəli Axundov, Həsən bəy Zərdabi, Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev, Nəriman Nərimanov, Cəlil Məmmədquluzadə, Üzeyir Hacıbəyov ilk dərin şırım açaraq Azərbaycan teatr sənətinin toxumunu səpmiş, onun cücərtilərini inqilabdan əvvəlki dövrün şiddətli qasırğalarından hifz edib qorumuşdular.

Azərbaycan teatrının beşiyi başında dahi mütəfəkkir, materialist filosof, Azərbaycan dramaturgiyasının atası Mirzə Fətəli Axundov dayanmışdı... Əlamətdar haldır ki, Mirzə Fətəli Axundovun ölməz komediyaları ilk dəfə müəllifin öz tərcüməsi ilə Peterburqda və Tiflisdə rus səhnəsində tamaşaya qoyulmuşdur. Müəllifin ana dilində ilk tamaşası yalnız iyirmi il sonra, 1873-cü ilin martında Bakıda göstərildi. Əsəri maarifçi demokrat Həsən bəy Zərdabi öz şagirdlərindən Nəcəf bəy Vəzirovun və Əsgər Adıgözəlovun yaxından iştirakı ilə tamaşaya qoymuşdu.

Azərbaycan teatrının meydana gəlməsi Azərbaycanda mütərəqqi ictimai-siyasi fikrin bütün inkişafı gedişində hazırlanmışdı. Azərbaycan teatrı lap əvvəldən realist teatr kimi təşəkkül tapmış, öz banilərinin arzuladıqları kimi, "həyat məktəbi", "əxlaqı saflaşdırmaq vasitəsi" olmuşdu.

N.Vəzirovun "Müsibəti-Fəxrəddin", Ə.Haqverdiyevin "Bəxtsiz cavan", N.Nərimanovun "Nadanlıq" pyeslərinin qəhrəmanları öz qəlblərinin ən gözəl, ən nəcib hiss və duyğularını doğma yurda, başı bəlalar çəkmiş xalqa həsr etmişdilər.. Belə ağır bir şəraitdə dramaturgiyanın qəhrəmanları öz müqəddəs arzularına çatmayaraq həlak olurdular. Lakin onlar həlak olduqda da tamaşaçıya yüksək ideallar aşılayır, xalqı mənəvi cəhətdən yüksəltmək kimi böyük bir işə xidmət etməyi ona öyrədirdilər.

Azərbaycan teatrının şöhrəti ildən-ilə artırdı. Bakıda olduğu kimi, Naxçıvanda, Şuşada, Gəncədə, Şamaxıda, Şəkidə, habelə Tiflisdə, İrəvanda, Təbrizdə və Aşqabadda da Azərbaycan dilində tamaşalar qoyulurdu.

Hüseyn Ərəblinski, onun həmkarları və məsləkdaşları olan Sidqi Ruhulla, Cahangir Zeynalov, Abbas Mirzə Şərifzadə, Mahmud Kazımovski, Mirzağa Əliyev, Hüseynqulu Sarabski, Əbülfət Vəli və başqaları teatrın özünü qoruyub saxlamaq uğrunda daimi, hətta fədakarcasına mübarizə şəraitində xalqı Azərbaycan və rus dramaturqlarının, dünya dramaturgiyası klassiklərinin ən yaxşı əsərləri ilə tanış edirdilər.

Azərbaycan dram teatrının fədailəri necə çətinliklərə və məhrumiyyətlərə rast gəlsələr də, irəliyə inamla baxırdılar. Ə.Haqverdiyev yazırdı: "Artistliyin yolları ağır və tikan ilə doludur. Ayağa batan tikanların ağrılarına qəyuranə davam edib mərdanə getməyin axırda işıqlı bir mənzilə yetirməyi şübhəsizdir".

1908-ci ildə Bakıda ilk milli operanın - Üzeyir Hacıbəyovun "Leyli və Məcnun" operasının tamaşası ilə musiqili teatr meydana gəldi. Çox keçmədən musiqili komediyalar, vodevillər yaradılmağa başladı.

1916-cı ildə Cəlil Məmmədquluzadənin "Ölülər" pyesi tamaşaya qoyulduqda cəhalətpərəstlər arasına necə vəlvələ düşdüyünü xatırlayaq. Bu tamaşa ətrafında şiddətli bir mübarizə başlanmışdı. Mürtəce tənqidçilər pyesin və tamaşanın ideya əhəmiyyətini, bədii məziyyətlərini kiçiltməyə çalışır, müəllifə mənasız ittihamlar verirdilər.

Lakin ziyalıların tərəqqipərvər hissəsi tamaşanı layiqincə qiymətləndirir, pyesin müəllifini irticaçıların və fanatiklərin hücumlarından qoruyurdular. N.Nərimanov yazırdı: "Bu drama müsəlmanların həyatında böyük rollar oynayacaqdır: paslanmış beyinləri pasdan təmizləyib, ölmüş ruhlara can verəcəkdir"... Doğrudan da, Cəlil Məmmədquluzadənin pyesi öz dərinliyi, obrazlarının parlaqlığı ilə indi də tamaşaçıları heyran edir.

Sovet hakimiyyətinin ilk illərində Azərbaycan və rus truppaları olan "Tənqid-təbliğ teatrı" yaradıldı. Teatr kiçik formalı tamaşalar qoyur, mənfi halları, meşşan və nepmanları satira atəşinə tutur, qadın azadlığının düşmənlərinə, din xadimlərinə, qolçomaqlara, bütün mürtəce qüvvələrə acı-acı gülürdü. İnqilabın özündən doğan "Tənqid-təbliğ teatrı" öz şərəfli vəzifəsini layiqincə yerinə yetirirdi. Sonralar bu teatrların əsasında Azərbaycan və rus truppaları – Bakıda Səməd Vurğun adına və Kirovabadda (Gəncə - red.) Cəfər Cabbarlı adına indiki teatrların sələfləri olan Bakı İşçi Teatrı yaradıldı...

...Cəfər Cabbarlının yaradıcılığı dramaturgiya ədəbiyyatımızın daha da inkişaf etdirilməsinə çox böyük təsir göstərmişdir.

...Görkəmli şair Səməd Vurğunun "Vaqif" mənzum dramı Azərbaycan dramaturgiyasının əsil incisi, səhnəmizin iftixarıdır.

...Dramaturq Hüseyn Cavidin və teatrın yaradıcı kollektivinin yüksək sənətkarlığı sayəsində "Şeyx Sənan", "Səyavuş", "Xəyyam" pyesləri geniş tamaşaçı kütlələrinin məhəbbətini qazanmışdır.

Dramaturqların sonrakı nəslinin – Mirzə İbrahimovun, Mehdi Hüseynin, Sabit Rəhmanın, Süleyman Rüstəmin, İlyas Əfəndiyevin, İmran Qasımovun, Ənvər Məmmədxanlının əsərlərində də teatrımızın ənənələrinin canlı nəfəsi duyulur. Böyük Vətən müharibəsi illərində sovet xalqının hünərini əks etdirən tamaşalarda realizm və romantizm üzvi surətdə birləşir. "Məhəbbət", "Vəfa", "İntizar", "İntiqam", "Uzaq sahillərdə" tamaşalarında döyüşçülərin və zabitlərin, arxa əməkçilərinin hünəri, qələbə saatını yaxınlaşdırmaq naminə onların göstərdikləri qəhrəmanlıq tərənnüm olunur.



Fərəhli haldır ki, respublika teatrları tamaşalarının əksəriyyəti müasirlərimizə, həyatımızın ciddi, aktual ictimai və etik problemlərinə həsr olunmuşdur... "Sən yanmasan", "Sən nə üçün yaşayırsan?", "Ömür elə qısadır ki", "Unuda bilmirəm", "Qəribə oğlan", "Kəndçi qızı", "Göz həkimi", "İkinci səs" tamaşalarında və digər tamaşalarda qəhrəmanların sözlərinə və hərəkətlərinə tamaşa salonunun dərin maraq göstərməsi bunu sübut edir.

Azərbaycan teatrının ən yaxşı tamaşaları, rejissorlardan İsmayıl Hidayətzadənin, Aleksandr Tuqanovun, Sergey Mayorovun, Rza Təhmasibin, Mehdi Məmmədovun, Məhərrəm Haşımovun, Tofiq Kazımovun, Ələsgər Şərifovun, Əliheydər Ələkbərovun, rəssamlardan Nüsrət Fətullayevin, İsmayıl Axundovun, Bədurə Əfqanlının adları, bəstəkarlardan Asəf Zeynallının, Qara Qarayevin, Fikrət Əmirovun, Cahangir Cahangirovun, Səid Rüstəmovun, Tofiq Quliyevin yaradıcılığı ilə bağlıdır.

Azərbaycan səhnəsinin görkəmli ustalarından Abbas Mirzə Şərifzadənin, Sidqi Ruhullanın, Mirzağa Əliyevin, Yeva Olenskayanın, Kazım Ziyanın, Ülvi Rəcəbin, Mərziyyə Davudovanın, Fatma Qədrinin, Ələsgər Ələkbərovun, Mustafa Mərdanovun müxtəlif tamaşalarda yaratdıqları canlı və dərin obrazlar M.Əzizbəyov adına teatrın (Akademik Milli Dram Teatrı – red.) salnaməsinə həmişəlik daxil olmuşlar. Diqqətəlayiq artistlərdən Hökümə Qurbanova, İsmayıl Dağıstanlı, Ağasadıq Gəraybəyli, İsmayıl Osmanlı, Barat Şəkinskaya, Əli Zeynalov, Möhsün Sənani və başqaları Azərbaycan teatrının inkişafına böyük kömək göstərirlər.

Mixail Jarov, Faina Ranevskaya, Pyotr Yudin, Kseniya Babiçeva, Raxil Ginzburq, Vera Şirye və başqaları rus dram teatrında gözəl aktyorluq məktəbi keçmişlər. Zəroş Həmzəyeva, İbrahim Həmzəyev, İsa Musayev, Rəmziyyə Veysəlova, Ələkbər Seyfi və başqaları Naxçıvan, Stepanakert (Xankəndi), Kirovabad (Gəncə – red.) teatrlarında məhsuldar çalışırlar. Teatrlarımızda getdikcə püxtələşən istedadlı gənclər, Azərbaycan teatr sənətinin ən yaxşı realist ənənələrinin ləyaqətli varisləri və davamçıları böyük yaradıcılıq ilhamı ilə işləyirlər...

Hər tamaşanın yaradılması bir çoxlarının – dramaturqun, rejissorun, aktyorların, dekoratorların, işıq ustalarının və başqalarının böyük və gərgin əməyidir. Səhnə əsərinin yaradılmasında həm baş, həm də epizodik rolların ifaçıları, həm səhnə fəhlələri, həm də biletyoxlayanlar iştirak edirlər. Bu gün, yüzillik yubiley günündə biz Azərbaycan teatrının yaranmasına, qüvvə toplamasına, inkişaf etməsinə və belə zirvələrə çatmasına özlərinin nəcib əməyi ilə kömək göstərənlərin hamısına əhsən deyirik.

Biz haqlı olaraq fəxr edirik ki, teatrlarımızın bir sıra ən yaxşı tamaşaları SSRİ və respublika dövlət mükafatlarına layiq görülmüşdür. "Şərqin səhəri" və "Xəzər üzərində şəfəq" tamaşalarına Sovet İttifaqı Dövlət mükafatının verilməsi M.Əzizbəyov adına və S.Vurğun adına teatrların böyük yaradıcılıq qələbəsi idi.

İndi respublikamızda 14 dövlət teatrı və 41 xalq teatrı vardır. Azərbaycanın paytaxtında yeddi teatr fəaliyyət göstərir.

Bizim teatr, ədəbiyyat, kino, televiziya, təsviri sənət, musiqi son illər ərzində sovet adamlarına xeyli yeni, maraqlı və gözəl əsər vermişdir. Yeni əsərlər və tamaşalar meydana gəlmişdir ki, bunlar da xalqımızın keçmişini və bugünkü həyatını realistcəsinə, bəzək-düzəksiz, lakin həm də nöqsanları qatılaşdırmadan işıqlandırır...

Teatrımız dərin düşüncələr və böyük hisslər, güclü dramatik vəziyyətlər teatrıdır. Dramaturgiyamız həmişə böyük ictimai konfliktlərə, böyük ictimai əhəmiyyəti olan mövzulara meyil etmişdir.

Teatr tamaşası həmişə bir bayramdır. Elə bir insan çətin tapılar ki, səhnə sənəti onun taleyində, dünyagörüşünün, estetik zövqünün formalaşmasında böyük rol oynamasın. Bizim bir çox yaxşı xatirələrimiz, təəssüratlarımız, ürək çırpıntılarımız ecazkar sənət ustalarının nəfəsini duymaqda, sevimli qəhrəmanların səsini eşitməkdə, bir növ onların sevinc və kədərinə şərik olmaqda bizə imkan verən teatrla, səhnə ilə bağlıdır. Bu cəhət teatrın böyük üstünlüyüdür və buna görə də biz şübhə etmirik ki, incəsənətin formaları daim nə qədər zənginləşirsə-zənginləşsin, televiziya və kino nə qədər yayılır və kütləvi hal alırsa-alsın, cəmiyyət inkişaf etdikcə teatrın rolu da artacaqdır. Səhnənin bilavasitə tamaşa salonu ilə ünsiyyəti prosesinə əsaslanan, tamaşaçılarla birlikdə həyəcan keçirən teatr həyatın özü qədər əbədidir.

Təəssüflə qeyd etmək lazımdır ki, tamaşa salonları heç də həmişə adamla dolu olmursa, bunun səbəbini həm bəzi pyeslərin və tamaşaların keyfiyyətində, həm də əsərlərin səhnə təcəssümünün forma və üsullarının daha rəngarəng olmasına imkan verən müasir texniki vasitələrə mühafizəkar münasibətdə axtarmaq lazımdır. Onu da etiraf etmək lazımdır ki, teatr sənətinin təbliği işi bizdə zəif təşkil edilmişdir. Bununla əlaqədar olaraq müasir dramaturgiyanın rolu və əhəmiyyətini qeyd etmək lazımdır. Müasir dramaturgiyanın inkişafı, şübhəsiz, bilavasitə teatrın özündən, onun bədii və estetik səviyyəsindən asılıdır. Bununla birlikdə qeyd etməmək olmaz ki, özünün bütün müvəffəqiyyətlərinə baxmayaraq, dramaturgiyamız zəhmətkeşlərin artan tələbatından geri qalır... Səthi müşahidələr əsasında tərtib edilmiş sxemlər üzrə soyuq ürəklə dərin məzmunlu səhnə əsərləri, müasirlərimizin şüuruna və qəlbinə təsir edə bilən əsərlər yaratmaq mümkün deyildir.

Azərbaycan teatrının bir əsrlik yoluna yekun vurarkən bir daha qeyd etmək istəyirəm ki, xalqın həyatı ilə, rus teatrının, onun vasitəsi ilə də dünya teatrının təcrübəsi və nəzəriyyəsi ilə üzvi əlaqə onun tarixi təcrübəsinin əsası olmuş və olmaqdadır. Azərbaycan teatrı öz ideyalarını, mövzu və obrazlarını xalq içərisindən götürmüşdür və götürür. Bu yolda Azərbaycan teatrı bədii kamilliyə çatmış, xalqın şüuruna yol tapmış, onun ideya-estetik tərbiyəsində mühüm rol oynamışdır.

---

**Rübabə Muradova – 90**

# Hər zənguləsi ilə doğma Ərdəbili soraqlayırdı...

Kövrək və həzin səsi ilə musiqisevərləri sehrində saxlayan görkəmli xanəndələrimizdən biri də Xalq artisti Rübabə Muradova olub. O, Ərdəbil sevgisi, nisgili ilə dolu nəğmələrində hər kəsdə vətən sevgisi oyadardı. Görkəmli sənətkarı anadan olmasının 90 illiyi ilə bağlı yada saldıq.

Rübabə Mirzə Xəlil qızı Muradova 22 mart 1933-cü ildə Cənubi Azərbaycanın Ərdəbil şəhərində ziyalı ailədə dünyaya göz açıb. Tibb təhsili olan atası övladının xoşbəxt gələcəyi üçün hər cür zəhmətə qatlaşır. Rübabəni Ərdəbil Qızlar məktəbinə qoyur. Onun məktəbdə təşkil olunan konsert və tamaşalarda səhnəyə çıxmasına etiraz etmir.

Mirzə Xəlil Cənubi Azərbaycan milli hökumətinin qurulması uğrunda mübarizə aparan "21 Azər" hərəkatına qoşulur. İnqilab qələbə ilə nəticələnsə də milli hökumətin ömrü uzun olmur. 1946-cı ildə milli hökumət süquta uğrayır və onun qurucuları, dəstəkləyənləri doğma yurddan qaçqın düşür. Rübabə Muradovanın ailəsi də Şimalı Azərbaycana üz tutur...

Ailə bir müddət Astara şəhərində məskunlaşır. Sonra Salyan şəhərinə gəlirlər. Mirzə Xəlilin dini təhsili olduğu üçün şəhərin məscidində axund kimi işə başlayır, eyni zamanda həkim kimi fəaliyyət göstərir. Rübabə şəhər orta məktəbində təhsil alır. Məktəbin özfəaliyyət dərnəyinə yazılır, burada istedadlı gənc kimi diqqət çəkir. Məlahətli səsi, həm də musiqi duyumu kollektivin tanınır. Oxuduğu məktəblə yanaşı, şəhərin mədəni-kütləvi tədbirlərində yaxından iştirak edir. Günlər bir-birini əvəz etdikcə Rübabə sənətdə püxtələşir və tanınır.

Günlərin birində Azərbaycan Dövlət Akademik Dram Teatrının aktyorları Salyan rayonuna qastrol səfərinə gedir. Gənc Rübabə şöhrətini eşidib, həyatda qarşılaşmadığı görkəmli aktyor Ələsgər Ələkbərovu burada görür.



Vaxt yetişir axşam "Vaqif" tamaşası təqdim edilmə ərəfəsində Xuraman rolunun ifaçısı xəstələnir. Beləliklə, Rübabə Muradova ilk dəfə peşəkar səhnəyə çıxır və Ə.Ələkbərovla tərəf-müqabil olur. Çox çətin olsa da, üzərinə düşən vəzifəni uğurla başa vurur. Onun Xuramanın özünü qayadan atması səhnəsində oxuduğu "Bayatı-kürd" muğamı tamaşaçıları heyran edir, böyük alqış doğurur. Tamaşadan sonra Ə.Ələkbərov gənc müğənnini Bakıya dəvət edir, "Filarmoniyanın sizin kimi səsli gənclərə ehtiyacı var", – deyir.

Rübabə Muradova 1951-ci ildə Bakı şəhərinə gəlir. Asəf Zeynallı adına Musiqi Məktəbinə qəbul olunur, ustad xanəndə Seyid Şuşinskinin sinfində sənətin sirlərini öyrənir. Hələ tələbə ikən müəllimlərinin ümidini doğruldur. Opera və Balet Teatrın səhnəsinə ilk dəfə Leyli rolunun ifaçısı kimi çıxır. 1954-cü ildə Opera və Balet Teatrında işə qəbul olunur. Əvvəl-əvvəl solist, sonra məşqçi-pedaqoq kimi fəaliyyət göstərir. O, bu sənəd məbədinin səhnəsində "Leyli və Məcnun"da Leyli, "Əsli və Kərəm"də Əsli, "Koroğlu"da Xanəndə qız, "Şah İsmayıl"da Ərəbzəngi, "Aşıq Qərib"də Şahsənəm, "Gəlin qayası"nda Sənəm rollarında çıxış edir.

Görkəmli sənətkarın ifaçılıq sənətimizin inkişafındakı xidmətləri yüksək qiymətləndirilir. O, 1956-cı ildə "Əməkdar artist", 1971-ci ildə isə "Xalq artisti" fəxri adlarına layiq görülür.

Rübabə Muradova sənətdə nə qədər uğurlar qazansa da, doğma Ərdəbilin nisgilini həmişə qəlbində daşıyıb. Araşdırmalarda qeyd edilir ki, bir gün görkəmli sənətkar Astara rayonunda qastrol səfərində olur. Sənət yoldaşlarından bir az aralanır və İran sərhədinə yaxınlaşır. Həsrətlə gedə bilmədiyi, hətta baxa bilmədiyi yerlərə diqqət yetirir və hönkür-hönkür ağlayır. Sənət yoldaşları onu çətinliklə sakitləşdirirlər...

Görkəmli sənətkar qısa ömründə sənətin şöhrət zirvəsinə yüksəlsə də, bir qəriblik nisgilindən üzülür. Yaşadığı ağrı-acılar, ailə həyatındakı uğursuzluqlar onu taqətdən salır. Hamıdan sevgi görsə də, öz sevdiklərinə çata bilmir. 28 avqust 1983-cü ildə Bakıda vəfat edən müğənni Yasamal qəbiristanlığında dəfn olunur.

Görkəmli qoboy ifaçısı, Xalq artisti, mərhum Kamil Cəlilov görkəmli sənətkarla bağlı deyib: "Rübabə xanım vəfatından öncə vəsiyyət etmişdi ki, mən onun cənazəsi başında "Segah" çalım. Çünki mənə həmişə deyərdi ki, ay Kamil, sən "Segah" çalanda elə bilirəm ki, Ərdəbildəyəm. Gözlərimi yumuram, açanda mənə qalan isə göz yaşları olur. Elə istəyirəm ki, nə sən çalğını kəsəsən, nə də mən gözlərimi açam...".

Rübabə Muradova 50 illik ömründə Azərbaycan musiqi mədəniyyətində elə bir iz qoyub ki, gələcək nəsillər onun sənət rübabını daima dinləyəcək, sənətkarı xoş duyğularla yada salacaqlar.

**S.Fərəcov**

# Peşəkar milli teatrın 150 illik yubileyində düşüncələr və xatirələr



2023-cü il mart ayının 10-da Azərbaycan peşəkar milli teatrının 150 illik yubileyi tamam olur. Əlamətdar yubiley cənab Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə il ərzində geniş şəkildə qeyd ediləcək.

Peşəkar milli teatrımızın əsryarımlıq tarixi. Bu 150 illik tarixdə mənim də 50 illik payım olduğuna görə özümü xoşbəxt hesab edirəm.

Xatirələr məni nə az, nə də çox, düz yarım əsr əvvələ, peşəkar milli teatrın 100 illik yubileyi keçirilən dövrə apardı. 1973-cü ildə keçirilməli olan yubiley tədbiri 1974-cü il may ayının 31-də indiki Heydər Əliyev Sarayında gerçəkləşdi. O vaxt mənim 25 yaşım var idi. Rəhmətlik Tofiq Kazımov Akademik Dram Teatrının baş rejissoru idi. 100 illik yubiley tədbirlərinə hazırlanan tamaşalardan biri Mehdi Məmmədovun quruluşunda Səməd Vurğunun ”İnsan” pyesinin tamaşası idi. Quruluşçu rejissor əsərə Səməd Vurğunun poeziya nümunələrindən də əlavələr etmişdi. Mən tamaşada alman zabitlərindən birini ifa edirdim.

Təntənəli yubiley yığıncağında Azərbaycan KP MK-nın I katibi Heydər Əliyev “Çoxmillətli sovet incəsənətinin bayramı” adlı məruzə ilə çıxış etmişdi. Daha sonra digər respublikalardan dəvət olunmuş qonaqların təbrikləri dinlənilmişdi.

Yaxşı yadımdadır, 100 illik yubileylə bağlı Azərbaycan Dövlət Akademik Dram Teatrı “Lenin” ordeni, aktyor və rejissorların bir qismi fəxri adlarla təltif edilmişdi. Onların sırasında bu il 100 illik yubileyi olan novator rejissor Tofiq Kazımov da vardı. Hələ bir çoxları Tofiq Kazımovun gələcəkdə yaradacağı qeyri-adi tamaşaların ümidi ilə yaşayırdı. Hələ onun avtomobil qəzasında həlak olmasına 6 il var idi. Bu altı ildə o, maraqlı tamaşalar hazırladı, biz gənclərə bir-birindən fərqli obrazlar həvalə etdi.

Teatrda Tofiq Kazımovla birlikdə Mehdi Məmmədov, Əşrəf Quliyev, Məmmədkamal Kazımov və digər rejissorlar da müxtəlif tamaşalar hazırlayırdı. Lakin mənə və mənim kimi o dövrün gənclərinə, bizim yaradıcılıq bioqrafiyamıza yaxın olan, ustad hesab etdiyimiz Tofiq Kazımov idi. O, tamaşalarında hər zaman gənclərə önəm verir və onların yaradıcılıq potensialının artmasına çalışırdı. Səməndər Rzayev, Amaliya Pənahova, Fuad Poladov, Yaşar Nuriyev, Ramiz Məlikov, Hamlet Qurbanov, mən və digərləri Tofiq Kazımovun tamaşalarında püxtələşmiş aktyorlar idik.

Tofiq Kazımov 1974-cü ildə Aleksandr Vampilovun “Övlad” tamaşasını hazırladı. Əsas aktyor heyəti gənclər idi. Ramiz Məlikov, Yaşar Nuriyev, Şəfiqə Məmmədova, Məhbubə Məlikova, Hamlet Qurbanov, Zərnigar Ağakişiyeva, Əminə Babayeva və başqaları.



Sonrakı mərhələdə dahi rejissor Vilyam Şekspirin “Fırtına” tamaşasında mənə Adrian obrazını verdi. Ramiz Məlikov Sebastian, Hamlet Qurbanov Ferdinand, Səməndər Rzayev Kaliban, Şəfiqə Məmmədova Ariel obrazlarını canlandırırdı. Tofiq müəllim tamaşada yaşlı, orta nəsil və gənc aktyorların müştərək fəaliyyətinə şərait yarada bilmişdi. Məlik Dadaşov Prospero, Məmmədrza Şeyxzamanov Kral Alonso, Əliağa Ağayev Stefano, Məmməd Sadıqov Qonzalo obrazlarını ifa etmişdilər. Bu, sözün əsl mənasında, sənətin təntənəsi sayılmalı idi. Bu, Tofiq Kazımov rejissorluğunun əsas qayəsi hesab olunmalıdır. O, tamaşadan tamaşaya məni və yaradıcılıq potensialına inandığı mənim kimi gəncləri mərhələlərlə, tədricən daha mükəmməl obrazlara hazırlayırdı.

1975-ci ildə Tofiq Kazımov İlyas Əfəndiyevin “Bağlardan gələn səs” pyesini tamaşaya qoydu. Mənə, 26 yaşlı gəncə gözlənilmədən 60 yaşlı Qubad obrazını həvalə etdi. Baxımlı bir tamaşa alınmışdı. Əliağa Ağayev kimi yüksək peşəkar səviyyəli bir sənətkar mənim ifamda Qubad obrazını görüb, çox bəyəndi, bir daha bu obrazda çıxış etmədi. Başqa sözlə desək, sənətdə sözünü demiş sənətkar, ilk addımlarını atan hər gəncə yaradıcılıq imkanlarını üzə çıxarmağa imkan yaradırdı. Bu gün bütün bunları xatırlayanda novator rejissor Tofiq Kazımova rəhmət oxuyuram.

1976-cı ildə Tofiq Kazımov Maqsud İbrahimbəyovun “Ümid” pyesinin tamaşasını hazırlayanda mənə Rauf obrazı həvalə edildi. Bu tamaşada mərhum Rafael Dadaşov (Zaur), Nəcibə Məlikova (Nərminənin anası), Bürcəli Əsgərov (Bədirov), İsmayıl Dağıstanlı (Sabir), Hamlet Qurbanov və Kamal Xudaverdiyev (Tahirov) və digər aktyorlar maraqlı obrazlar ifa edirdilər. Bu tamaşada da quruluşçu rejissor gənc aktyorlarla birgə orta və yaşlı nəsil aktyorlara yer vermişdi. Gənc nəsil səhnədə orta və yaşlı nəsil aktyorlarla bir növ “ustad dərsləri”ndən keçirdi. Maraqla qarşılanan bu tamaşa bir müddət teatrın repertuarında uğurla oynandı.

Tofiq Kazımov 1976-cı ildə M.S.Ordubadinin “Qılınc və qələm” əsəri əsasında tamaşa hazırlayanda mənə Mühakim obrazını verdi. Fuad Poladov İlyas, Nizamini, Kamal Xudaverdiyev Fəxrəddini, Hamlet Xanızadə Hüsaməddini, Səməndər Rzayev Əmir İnancı, Nəcibə Məlikova Safiyə və digər aktyorlar fərqli obrazlar təsvir edirdilər.

1977-ci ildə Mirzə İbrahimovun “Bəşərin komediyası və yaxud Don Juan” tamaşasında Pedro rolunu oynadım. Tamaşaçılar Rafael Dadaşovun Don Juanını, Yaşar Nuriyevin Sqanarelini, Şəfiqə Məmmədovanın Teodorasını, Hamlet Xanızadənin Don Martinini və digər aktyorların ifa etdikləri obrazları maraqla qarşıladılar.

Tofiq Kazımov sanki yaxınlaşmaqda olan qəzavü-qədəri hiss edir və daha çox tamaşalar hazırlayıb, tamaşaçıların qəlbini oxşamaq, yaddaşlarda əbədi məskən salmaq istəyirdi. Deməliyik ki, o bunu bacardı. Böyük rejissor, əbədiyyətə qovuşmağından 43 il keçsə də, xeyirxahlıqla xatırlanır və unudulmur.

Həmin ildə unudulmaz rejissorumuz Anatoli Safronovun “Daşqın” tamaşasını səhnəyə qoydu. Görkəmli sənətkarımız Əliağa Ağayevlə mənə Çakan Yemelyan obrazını həvalə etmişdi. Əliağa Ağayev kimi sənətkarla eyni bir obrazı oynamaq çox böyük məsuliyyət idi. Lakin Əliağa Ağayev səhnədə tərəf-müqabilinə stimul verən, onu oynamağa ruhlandıran təcrübəli sənətkar idi. Bu tamaşada da gənclərlə birlikdə orta və yaşlı nəslin sənət nümayəndələri müştərək fəaliyyət göstərərək, sözün əsl mənasında, sənət nümunəsi yaradırdılar. İsmayıl Dağıstanlı Anton Petroviç, Səməndər Rzayev Beryozin Qriqori, Zərnigar Ağakişiyeva Olqa Semyonovna, Şükufə Yusupova Anyuta, Rafiq Əzimov Zaxar obrazlarında maraqla izlənilirdi.

Həmin il Tofiq müəllim Ananın “Şəhərin yay günləri” tamaşasını hazırladı. Bu tamaşada Feyruz obrazını canlandırdım. Bu tamaşada da təcrübəli rejissor müxtəlif yaş qruplarından ibarət maraqlı ansambl toplaya bilmişdi.

1978-ci ildə Tofiq Kazımov Mirzə Fətəli Axundovun “Müsyö Jordan və dərviş Məstəli şah” pyesinə quruluş verdi. Rafiq Əzimovla mənə Müsyö Jordan obrazını tapşırdı. Bu tamaşada da rejissor maraqlı aktyor ansamblı toplaya bilmişdi. Dərviş Məstəlişahı Məlik Dadaşov, Hətəmxan ağanı Səməndər Rzayevlə Məcnun Hacıbəyov, Şərəbanunu Nəcibə Məlikova, Şahbaz bəyi Fuad Poladovla Rafael Dadaşov, Qulaməlini Yaşar Nuriyevlə Elxan Ağahüseynoğlu və digər obrazları teatrın aktyorları ifa edirdilər.

Novator rejissorun maraq dairəsi geniş və hərtərəfli idi. Tofiq Kazımov 1980-cı ildə birdən-birə Taufiq əl-Hakiminin “Karıxmış sultan” əsərinə müraciət etdi. Bu maraqlı tamaşada Çəkməçi rolunu oynadım...

Beləliklə, Akademik Dram Teatrında Tofiq Kazımovun yaradıcılıq kitabını vərəqləyərək, eyni zamanda özümün və mənimlə birlikdə teatra qədəm qoymuş gənc nəslin 50 ilə yaxın səhnə yoluna qısa nəzər saldım. Həm sevindim, həm də qüssələndim. Sevindim ki, peşəkar milli teatr 150 illik yubileyinə çatsa da, sanki ildən-ilə cavanlaşır və yenilənir. Teatrda nəsillər bir-birini əvəz edir. Mən də sənət yoldaşlarımla birgə ömrümün 50 ilini milli teatr sənətinə həsr etdiyim üçün xoşbəxtəm. Bizim nəsil artıq yaşlanıb, amma hələ də təcrübəmizlə gərəkli ola bilərik. Teatra yeni nəsillər gəlir. Onların da daha peşəkar, daha istedadlı olmasını istəyirəm. Teatrda maraqlı dram əsəri, peşəkar rejissura, baxımlı və düşündürücü aktyor ifaları görmək arzusundayam.

XXI əsr müasir texnologiyalar dövrüdür. Süni intellektlər dövrünə qədəm basmışıq. Texnologiyalar yenilənə bilər. Amma heç bir texnologiya teatrın möcüzəsini və sehrini əvəz edə bilməz. Mən buna qəti əminəm. Amma teatr da müasir texnologiyalar əsrinə cavab verməli, müasir insan düşüncəsini silkələməlidir. Bunu teatra gələn yeni nəsil bilməli və riayət etməlidir. Biz yaşlı nəsil bacardığımız qədər peşəkar milli teatrı qoruyub, inkişaf etdirdik. Bundan sonra peşəkar milli teatrı inkişaf etdirib, gələcək nəslə çatdırmaq bugünkü gənclərin öhdəsinə düşür. 150 yaşlı peşəkar teatrın gələcək inkişafının əmin əllərdə olmasına əminəm.

**İlham Namiq Kamal**
**Xalq artisti, professor**

## “Düşün və yarat!” müsabiqəsinin yekun sərgisi



Xətai Sənət Mərkəzində “Heydər Əliyev İli” münasibətilə elan edilmiş “Düşün və yarat!” adlı yaradıcılıq müsabiqəsinin yekun sərgisi açılıb. Sərgi Mədəniyyət Nazirliyi, Elm və Təhsil Nazirliyi, “Azərbaycan Televiziya və Radio Verilişləri” QSC, Xətai Rayon İcra Hakimiyyəti, Rəssamlar İttifaqı, Azərbaycan Dövlət Rəsm Qalereyası və Xətai Sənət Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilib.

Azərbaycan Dövlət Rəsm Qalereyasının direktor müavini Gülşən Qəribli tədbir iştirakçılarını salamlayıb. Azərbaycan Rəssamlar İttifaqının katibi Xalq rəssamı Ağaəli İbrahimov, Azərbaycan Rəssamlıq Akademiyasının dosenti Emin Akifoğlu, Dövlət Rəsm Qalereyası Ekspozisiya və sərgilər şöbəsinin müdiri Elçin Hüseyn və Xətai Sənət Mərkəzinin direktoru Zahid Əvəzov sərgi ilə bağlı fikirlərini bölüşüblər.

Sərgidə əsərləri nümayiş olunan müəlliflərə sertifikatlar, fəal yaradıcılıq mərkəzlərinə təşəkkürnamələr təqdim edilib.

## “Azərbaycan sənədli kino salnaməsi”

Xəbər verdiyimiz kimi, Azərbaycan kinosunun 125 illiyi və “Azərbaycanfilm” kinostudiyasının 100 illiyi münasibətilə Dövlət Film Fondunda sənədli kino salnaməsindən nümunələrin retrospektiv nümayişi olacaq.




“Azərbaycan sənədli kino salnaməsi” silsiləsindən ilk tədbir martın 3-də, görkəmli sənədli kino ustası Niyazi Bədəlovun (1909-1997) yaradıcılığına həsr edilib.

Tədbiri Dövlət Film Fondunun direktoru Əməkdar incəsənət xadimi Cəmil Quliyev açaraq Niyazi Bədəlovun Azərbaycan kinosundakı əvəzsiz xidmətlərindən danışıb.

Əməkdar incəsənət xadimi, kinoşünas Aydın Kazımzadə görkəmli rejissor haqqında xatirələrini bölüşüb.

Çıxışlardan sonra rejissor Niyazi Bədəlovun “150 il. Mirzə Fətəli Axundov”, “Dağlarda ada” və “Estafet” filmləri nümayiş olunub.

Sonda Niyazi Bədəlovun ailə üzvləri adından qızı Sədaqət Bədəlova çıxış edərək Dövlət Film Fondunun rəhbərliyinə və kollektivinə təşəkkür edib.

## Xatirə təqvimi — 8-13 mart

### Azərbaycan

**8 mart 1911** – Xalq artisti Ağadadaş Gülməmməd oğlu Qurbanov (1911 – 25.6.1965) anadan olub. Gənc Tamaşaçılar, Akademik Milli Dram teatrlarında çıxış edib. “Koroğlu”, “Bir qalanın sirri”, “Bizim küçə”, “Arşın mal alan” (1965, Soltan bəy) və s. filmlərdə çəkilib.

**8 mart 1923** – Ədəbiyyatşünas, teatrşünas Ədilə Əlihüseyn qızı Əliyeva (1923-1984) Bakıda anadan olub.

**8 mart 1935** – Azərbaycan SSR Xalq Komissarları Sovetinin qərarı ilə Dövlət Teatr Muzeyinə (1934-cü ildə yaradılıb) görkəmli dramaturq Cəfər Cabbarlının adı verilib.

**8 mart 1940** – Kinooperator Ramiz Əlirza oğlu Babayev (1940 – 11.1.1994) Bakının Əmircan qəsəbəsində doğulub. 1957-ci ildən “Azərbaycanfilm” kinostudiyasında işləyib.

**8 mart 1947** – Şair, publisist Ağamalı Sadiq Əfəndi (Ağamalı Əhməd oğlu Əfəndiyev; 1947-1995) Qazax rayonunun Qaymaqlı kəndində doğulub.

**8 mart 2006** – Xalq artisti, tanınmış teatr və kino aktyoru Əliabbas Gülabbas oğlu Qədirov (15.2.1946 – 2006) vəfat edib. Akademik Milli Dram Teatrının direktoru olub.

**9 mart 1893** (bəzi mənbələrdə 12 dekabr) – Görkəmli aktyor, rejissor, Xalq artisti Abbas Mirzə Mirzə Əbdülrəsul oğlu Şərifzadə (1893 – 16.11.1938) Şamaxıda anadan olub. Azərbaycan teatr tarixində müstəsna xidmətlər göstərib, dram və opera tamaşalarına quruluş verib. 1938-ci ildə repressiya qurbanı olub.

**9 mart 1915** – Xalq rəssamı Kamil Əli Abbas oğlu Xanlarov (1915-1996) anadan olub. Füsunkar təbiət lövhələrini kətana köçürüb: “Zaqatala dağları”, “Şuşa”, “Araz sahilində”, “Ordubadda qış” və s. Filmlərdə (“Kəndlilər”, “Fətəli xan”) geyim rəssamı işləyib.

**9 mart 1929** – Əməkdar artist, diktor Gültəkin Əjdər qızı Cabbarlı (1929 – 15.10.1996) anadan olub. Azərbaycanda peşəkar diktorluq məktəbinin yaranmasında xüsusi xidmətləri olub.

**9 mart 1952** – Əməkdar incəsənət xadimi, aktyor, rejissor Əhməd Haşım oğlu Qəmərli (Məlikov; 1880-1952) vəfat edib. Bakı Azad Tənqid-Təbliğ Teatrında çalışıb, filmlərdə çəkilib. Kiçik pyeslər yazıb.

**10 mart 1878** – Böyük yazıçı, dramaturq, mütəfəkkir Mirzə Fətəli Axundzadə (30.6.1812 – 1878) Tiflisdə vəfat edib. 1850-ci illərdə yazdığı 6 komediya ilə dramaturgiyamızın, 1857-ci ildə qələmə aldığı “Aldanmış kəvakib” povesti ilə realist nəsrimizin təməlini qoyub.

**10 mart 1915** – İlk azərbaycanlı balerina, SSRİ Xalq artisti, SSRİ Dövlət mükafatı laureatı Qəmər Hacağa qızı Almaszadə (1915 – 7.4.2006) anadan olub. Professional səhnəni tərk etdikdən sonra Dövlət Opera və Balet Teatrının baş baletmeysteri olub (1953-1972), Bakı Xoreoqrafiya Məktəbinin direktoru işləyib.

**10 mart 1940** – Xalq artisti, xanəndə Canəli Xanəli oğlu Əkbərov (1940 – 22.10.2021) Lənkəran rayonunun Tükəvilə kəndində doğulub. Opera tamaşalarında baş rollarda (Məcnun, Kərəm, Aşıq Qərib, Şah İsmayıl və s.) çıxış edib.

**10 mart 2004** – Xalq artisti Nəsibə Cahangir qızı Zeynalova (20.4.1916 – 2004) vəfat edib. Musiqili Komediya Teatrında çalışıb, filmlərdə (“Ögey ana”, “Ulduz”, “Qayınana” və s.) maraqlı obrazlar yaradıb.

**10 mart 2021** – Xalq rəssamı Mirnadir Mirəli oğlu Zeynalov (12.11.1942 – 2021) vəfat edib.

**11 mart 1925** – Xalq artisti, məşhur aktyor Bəşir Səfəroğlu (Bəşir Səfər oğlu Səfərov; 1925 – 24.3.1969) Bakıda anadan olub. Musiqili Komediya Teatrında tamaşaçı rəğbəti qazanan obrazlar yaradıb. “Əhməd haradadır?”, “Ulduz” və s. filmlərdə çəkilib.

**11 mart 1942** – Tanınmış aktrisa Lütfiyyə Şamil qızı Səfərova (1942-2010) Bakıda doğulub. 1963-cü ildən Musiqili Komediya Teatrında çalışıb.

**11 mart 2000** – Prezident Heydər Əliyev Xalq yazıçısı Süleyman Rəhimovun 100 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalayıb.

**11 mart 2022** – Xalq yazıçısı, dramaturq, Dövlət mükafatları laureatı Rüstəm Məmməd İbrahim oğlu İbrahimbəyov (5.2.1939 – 2022) vəfat edib. 30-dan çox filmin ssenari müəllifidir. Pyesləri teatrlarda tamaşaya qoyulub.

**12 mart 1904** – Xalq yazıçısı Əbülhəsən (Əbülhəsən Əlibaba oğlu Ələkbərzadə; 1904-1986) İsmayıllı rayonunun Basqal kəndində doğulub. “Yoxuşlar”, “Müharibə”, “Dostluq qalası”, Dünya qopur” və s. romanların müəllifidir.

**12 mart 1906** – Xalq şairi, Sosialist Əməyi Qəhrəmanı Süleyman Rüstəm (Süleyman Əliabbas oğlu Rüstəmzadə; 1906 – 10.6.1989) Bakıda anadan olub. Kitabları: “Gün o gün olsun ki...”, “İki sahil”, “Durna” (komediyalar), “Təbrizim”, “Azərbaycana gəlsin” və s. Azərbaycan SSR Ali Sovetinin sədri olub.

**12 mart 1933** – Xalq şairi Cabir Novruz (Cabir Mirzəbəy oğlu Novruzov; 1933 -12.12.2002) Xızı rayonunun Upa kəndində doğulub. Şeirlərinə populyar mahnılar (“Cavanlığım”, “Ey həyat, sən nə qəribəsən?”, “Tələbəlik illəri” və s.) bəstələnib. Milli Məclisin deputatı (1995-2000) olub.

**12 mart 2020** – Əməkdar artist Adil Ağakərim oğlu Zeynalov (1960 – 12.3.2020) vəfat edib. Lənkəran Dövlət Dram Teatrında aktyor və rejissor işləyib.

**13 mart 1899** – Xalq artisti Məmmədəli Hacı Heydər oğlu Vəlixanlı (Heydərzadə; 1899 – 12.4.1969) Bakının Fatmayı kəndində doğulub. 1920-ci ildən Azərbaycan Dövlət Dram Teatrında çalışıb, Musiqili Komediya Teatrında tamaşalarda oynayıb. “Görüş” filmində (1955) çəkilib.

**13 mart 1918** – Əməkdar mədəniyyət işçisi Xavər Əhməd qızı Vəkilova (Mirzəbəyova; 1918 – 16.1.2006) Dərbənd şəhərində doğulub. Xalq şairi Səməd Vurğunun ömür-gün yoldaşı olub. Səməd Vurğunun Ev-Muzeyinin direktoru (1975-2006) işləyib.

**13 mart 1927** – Görkəmli aktyor, Xalq artisti Nodar Şaşıqoğlu (Nodar İzzətoviç Şaşıqoğlu; 1927 – 12.4.2013) Batumi şəhərində anadan olub. Moskva və Sankt-Peterburq teatrlarında, Azərbaycan Dövlət Rus Dram Teatrında çalışıb. “Uzaq sahillərdə”, “Əsl dost”, “Telefonçu qız” və s. filmlərdə yaddaqalan obrazlar yaradıb.

**13 mart 1928** – Tanınmış skripka ifaçısı, Əməkdar artist Azad Həmzə oğlu Əliyev (1928 – 17.8.1994) anadan olub.

**13 mart 1994** – Görkəmli aktyor, Əməkdar artist Həsən Abbasqulu oğlu Əbluc (22.4.1942 – 1994) vəfat edib. Teatr və televiziya tamaşalarında, kinoda yaddaqalan obrazlar yaradıb.

**13 mart 1996** – Prezident Heydər Əliyev böyük şairimiz Məhəmmədhüseyn Şəhriyarın 90 illik yubileyi haqqında sərəncam imzalayıb.

### Dünya

**8 mart 1851** – Böyük türk maarifçisi, mütəfəkkir, naşir İsmayıl Qaspıralı (Qasprinski; 1851 - 24.9.1914) Krımın Qaspıra şəhərində doğulub.

**9 mart 1814** – Ukrayna şairi, yazıçı, rəssam Taras Qriqoryeviç Şevçenko (1814 - 10.3.1861) anadan olub.

**9 mart 1934** – Moldova aktyoru, SSRİ Xalq artisti Mixay Volontir (1934 – 15.9.2015) anadan olub. Azərbaycanda “Tütək səsi” filmində çəkilib.

**10 mart 1772** – Alman filosofu, filoloq, dilçi və yazıçı Fridrix Şlegel (Friedrich Schlegel; 1772-1829) anadan olub.

**11 mart 1544** – İtalyan şairi Torkvato Tasso (Torquato Tasso; 1544-1595) anadan olub.

**11 mart 1818** – Fransız əsilli rus baletmeysteri, tanınmış pedaqoq Marius İvanoviç Petipa (1818-1910) anadan olub.

**12 mart 1728** – Alman rəssamı, klassisizmin tanınmış nümayəndəsi Anton Rafael Menqs (Anton Raphael Mengs; 1728-1779) anadan olub.

**12 mart 1937** – Gürcü opera müğənnisi (tenor), SSRİ Xalq artisti Zurab Lavrentyeviç Sotkilava (1937-2017) anadan olub.

**13 mart 1900** – Yunan şairi, ədəbiyyat üzrə Nobel mükafatı (1963) laureatı Giorgos Seferis (1900-1971) anadan olub.

**13 mart 1910** – Türk yazıçısı Kamal Tahir Dəmir (1910 – 21.4.1973) anadan olub. “Əsir şəhərin insanları”, “Yorğun savaşçı”, “Qurd qanunu” və s. romanların müəllifidir.

**Hazırladı: V.Orxan**

№18-19 (1988)
10 mart 2023
www.medeniyyet.az

# Zəriflərin bayramı münasibətilə – “Harmoniya”





Martın 6-da Bakıdakı Rus evinin sərgi salonunda Beynəlxalq Qadınlar Gününə həsr olunmuş “Harmoniya” adlı qrup sərgisi keçirilib.

“Chagh Art Platform” və “Art Cardio”nun təşkilatçılığı ilə gerçəkləşən sərginin açılışında Əməkdar incəsənət xadimi, sənətşünas Ziyadxan Əliyev çıxış edərək Azərbaycan rəssamlarının əsərlərində qadın obrazları mövzusunda düşüncələrini bölüşüb və əl işləri sərgilənən rəssamları təbrik edib. Bildirilib ki, statusundan və yaşından asılı olmayaraq, qadın gözəlliyi, incəlik, müdriklik və qadına diqqət hər zaman təsviri sənət ustalarının yaradıcılığında xüsusi yer tutub.

Sərginin əhəmiyyətini vurğulayan sənətşünas deyib ki, qadın gözəlliyini duymağa və dəyərləndirməyə xidmət edən belə sərgilər cəmiyyətin müxtəlif təbəqələrinin estetik zövqünün formalaşmasında mühüm rol oynayır.

Azərbaycan Dövlət Rəsm Qalereyasının direktor müavini Gülşən Qəribli bildirib ki, “Harmoniya” sərgisi qadın təbiətini, kainatın ən ülvi gözəlliyini əsərlərində tərənnüm edən rəssamların yaradıcılığına diqqət çəkmək məqsədilə keçirilir.

Sərgidə Rəfail Əliyev, Mir Azər Abdullayev, İlham Mirzəyev, Diana Əliyeva, Cavid Məmmədov, Xanlar Əsədullayev, Sahib Yaqubov, Ellada İsmayıl, Samirə Allahverdiyeva, Sara Nizam, İnna Seleznova, Rüstəm Hüseynov, Məhərrəm Əliyev, Ruslan Rüstəmov və başqa rəssam və heykəltəraşların müxtəlif üslub və texnikalarda işlənmiş 40-a yaxın rəngkarlıq, heykəltəraşlıq əsərləri və bədii fotoqrafiya nümunələri nümayiş olunur.

**Lalə Azəri**

# Vyanada Azərbaycan xalçalarının sərgisi

Ölkəmizin zəngin mədəni irsi, xalqımızın həyat tərzi və qədim adət-ənənələri ilə sıx bağlı olan xalçaçılıq sənəti və məktəblərinin Avropada tanıdılması məqsədilə Vyanada fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Mərkəzində “Azərxalça” ASC tərəfindən sərgi təşkil edilib.



Sərgidə Azərbaycanın müxtəlif xalçaçılıq məktəblərinə aid klassik və müasir dizaynda nümunələr yer alıb, xalçaçılıq sənəti, eləcə də tanınmış xalça toxucularımızdan bəhs edən film nümayiş olunur.

AMM-in rəhbəri Leyla Qasımova bildirib ki, xalçaçılıq Azərbaycan xalqının məişətində özünə möhkəm yer tutmuş və az qala xalqın rəmzinə çevrilmiş sənətlərdən biridir. “Azərxalça”nın sədr müavini Ceyhun Əlibəyov qurumun fəaliyyətindən söz açıb.

Tədbir çərçivəsində Türkiyədə baş vermiş dəhşətli zəlzələlərdən zərər çəkmiş insanlara yardım aksiyası da təşkil olunub. Azərbaycan milli məhsulları, kəlağayı və milli üslubda hazırlanmış zinət əşyaları və xalçaların satışından əldə olunan gəlirin bir hissəsi AFAD-a ianə olunacaq.

Türkiyənin Avstriyadakı səfiri Ozan Ceyhun xeyriyyə xarakterli tədbir üçün minnətdarlığını bildirib, qardaş ölkələrimizin hər zaman bir yerdə olduqlarını qeyd edib.

Xalq artisti Ənvər Sadıqovun başçılıq etdiyi musiqi qrupunun konsert proqramı tədbirə xüsusi rəng qatıb. Konsertdə məşhur caz pianoçusu və bəstəkar, beynəlxalq müsabiqələr laureatı Emil Əfrasiyab da iştirak edib. Vyanadakı AMM-də təşkil olunan sərgi aprel ayının sonunadək ziyarət üçün açıq olacaq.

# Sənətçilərimiz Şalyapin adına festivalın qala-konsertində

Xəbər verdiyimiz kimi, Tatarıstanın Kazan şəhərində keçirilən Fyodor Şalyapin adına 41-ci Beynəlxalq Opera Festivalında (30 yanvar – 28 fevral) Azərbaycan sənətçiləri də iştirak ediblər.



Məşhur rus opera müğənnisinin 150 illiyinə həsr olunan budəfəki festivalda Əməkdar artist Azər Zadə italyan bəstəkarı C.Puççininin “Madam Batterflyay” operasında (8 fevral) Pinkerton partiyasını ifa edib. Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının baş dirijoru, Əməkdar artist Əyyub Quliyev isə C.Verdinin “Nabukko” operasının tamaşasını (11 fevral) idarə edib.

Müxtəlif ölkələrdən tanınmış müğənni və dirijorları bir araya gətirən festivalın yekun qala-konsertində Bolşoy Teatrın (Moskva) və Mariinski Teatrının (Sankt-Peterburq) solistləri çıxış ediblər. Bolşoy Teatrın solistləri, Azərbaycanın Xalq artistləri Elçin Əzizov və Dinara Əliyeva da səhnəyə çıxıblar.

Bolşoy Teatrın simfonik orkestri və Tatarıstan Dövlət Opera və Balet Teatrı xorunun iştirak etdiyi konserti üç dirijor – Azərbaycandan Əyyub Quliyev, İtaliyadan Marko Boemi və Rusiyanın Əməkdar artisti Anton Qrişanin idarə ediblər.

Şalyapinin həyat və yaradıcılığının müxtəlif dövrləri ilə bağlı rejissor Mixail Pancavidze və rəssam Harri Humel tərəfindən zövqlə tərtib edilmiş bədii-musiqili proqram da təqdim edilib.

Konsertin birinci bölümündə rus bəstəkarları Raxmaninov, Darqomijski, Rimski-Korsakov, Borodin, Çaykovski və Musorqskinin əsərləri Azərbaycan, Gürcüstan, Belarus və Rusiyanın opera müğənniləri – Bolşoy və Mariinski teatrlarında, Kazan Opera və Balet Teatrının solistləri tərəfindən böyük məharətlə ifa edilib.

Azərbaycanlı dirijor Əyyub Quliyevin iştirakı ilə Bolşoy Teatrın simfonik orkestri və Tatarıstan Opera və Balet Teatrının balet solistləri və xorunun ifasında A.Borodinin “Qıpçaq rəqsləri”dən parça xüsusi alqışlarla qarşılanıb.

# Sahib Paşazadə Varşavada ustad dərsi keçib

Azərbaycanın Polşadakı Səfirliyinin təşəbbüsü ilə bu ölkənin Frederik Şopen adına Musiqi Universitetində tarzən, Əməkdar artist Sahib Paşazadənin ustad dərsi keçirilib. Ustad dərsində universitetin tələbə və müəllim heyəti iştirak edib.



S.Paşazadə iştirakçılara Azərbaycanın milli musiqi aləti tar haqqında ətraflı məlumat verib, xüsusilə xalq mahnılarının, muğamların ifasında tarın müşayiətinin vacibliyi barədə danışıb. İfaçı XIX əsrin II yarısında ustad tarzən Sadıqcan tərəfindən alətin quruluşuna dəyişikliklər edilməsi, simlərin sayının 5-dən 11-ə çatdırılması, tarın tutma qaydasının dəyişdirilməsi və onun diz üstündən sinəyə qaldırılması barədə söz açıb. XX əsrdə yeni inkişaf mərhələsinə qədəm qoymuş müasir tar ifaçılığına diqqət çəkən S.Paşazadə əsası Üzeyir Hacıbəyli tərəfindən qoyulmuş notlu ifaçılıq məktəbində alətin texniki və bədii imkanlarının daha da artmasını qeyd edib. O, həmçinin Azərbaycan muğamının, eləcə də tar ifaçılığı və tar alətinin hazırlanması sənətinin UNESCO-nun siyahısında yer alması, Azərbaycan muğamları barədə tədbir iştirakçılarına məlumat verib, muğam məktəbləri, muğam dəsgahları barədə danışıb.

Ustad dərsində tarzən tanınmış pianoçu Səidə Tağızadənin müşayiəti ilə Azərbaycan klassik və xalq musiqisindən parçalar ifa edib, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

# Turizm imkanlarımız “ITB Berlin”də təbliğ olunub

Azərbaycanın turizm potensialı 7-9 mart tarixlərində Almaniya paytaxtında – dünyanın aparıcı turizm və səyahət sərgilərindən olan “ITB Berlin”də tanıdılıb.



Dövlət Turizm Agentliyi (DTA) və Azərbaycan Turizm Bürosunun (ATB) təşkilatçılığı ilə Azərbaycan Hotel Assosiasiyası, “Azərbaycan Hava Yolları” QSC, Abşeron Hotel Qrupu, “InterContinental Baku” və bir sıra qabaqcıl turizm agentlikləri daxil olmaqla 15 tərəfdaş ölkənin turizm imkanlarının təbliğ edilməsi və əməkdaşlıq əlaqələrinin qurulması məqsədilə müxtəlif ölkələrin təmsilçiləri ilə görüşlər keçiriblər.

Sərginin ilk günü ATB-nin baş icraçı direktoru Florian Zenqstşmid “Euronews”, “Connesseuir circle”, “Touristik Aktuell” kimi tanınmış kütləvi informasiya vasitələrinə müsahibələr verib.

Eyni zamanda Azərbaycanın milli stendi Ümumdünya Səyahət və Turizm Təşkilatının “Hotel Dayanıqlılığının Əsasları” proqramının təqdimatı tədbirinə ev sahibliyi edib. Təşkilatının prezidenti Culiya Simpson çıxış edərək proqrama ölkə tərəfdaşı olaraq qoşulan Azərbaycana və bu məsuliyyəti öz üzərinə götürən ATB-yə təşəkkür edib.

Sərginin ikinci günü ATB-nin əməkdaşlıq etdiyi, aviabiletlər, hotel, tur paketləri və turistik səfərləri onlayn sifariş etməyə imkan verən “Expedia Group” qlobal turizm platformasının hesabat tədbiri keçirilib. Tədbirdə “Expedia Group”un Azərbaycanla tanıtım sahəsində əməkdaşlığı ilə bağlı təqdimat da olub.

Qeyd edək ki, 2022-ci ilin iyun-dekabr ayları ərzində adıçəkilən platformada Azərbaycanın mədəniyyəti, təbiəti, macəra, yemək və şərab kimi turizm məhsullarını təbliğ edən materiallar yerləşdirilib. Kampaniyanın hədəf bazarları Almaniya, Hindistan, Böyük Britaniya, eləcə də Yaxın Şərq ölkələri olub.

# Bu templə 300 il lazım olacaq...

## BMT-nin Baş katibi bədbindir

Bütün dünyada qadın hüquqları sahəsində əldə olunmuş irəliləyiş gözümüzün qarşısında yox olmaqdadır. Son proqnozlara görə, hazırkı templə gender bərabərliyinə tam nail olmaq üçün daha 300 il lazım olacaq.

Ukraynadakı müharibədən fövqəladə iqlim vəziyyətinə qədər bu gün bir-birinin üstünə gələn böhranlar, ilk növbədə, ən çox qadınlara və qızlara təsir edir. Demokratiyanın qlobal səviyyədə geriləməsi fonunda isə qadınların şəxsi həyatları ilə bağlı müstəqilliyi şübhə altına alınır, inkar edilir.

Bu fikirlər BMT-nin Baş katibi Antonio Quterreşin 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə yazdığı məqalədə yer alıb.

Onun sözlərinə görə, iki statistik məlumat bu xüsusda uğursuzluğu açıq şəkildə göstərir: dünyada hər on dəqiqədə bir qadın və ya qızı ailə üzvü və ya sevgilisinin əlindən ölür. Hər iki dəqiqədə hamiləlik və ya doğuş zamanı bir qadın ölür. Bu ölümlərin əksəriyyətinin qarşısını almaq mümkündür.

Antonio Quterreş qeyd edib ki, bu dəhşətli tendensiyaları geri çevirməliyik, hər yerdə qadınların, qızların həyatlarını və hüquqlarını müdafiə etməliyik: “Cənubi Sudandan Myanmaya qədər böhran vəziyyətində olan qadın və qızları dəstəkləyirik, onların səslərinin eşidilməsini təmin edirik”.




Zamanın səhifələrində qalan olaylar, faktlar...

### 288 il əvvəl...

**10 mart 1735-ci ildə** Səfəvi dövləti və Rusiya arasında Gəncə müqaviləsi bağlanıb. Səfəvi ordusunun komandanı Nadir xan və knyaz Qolitsın tərəfindən imzalanan müqaviləyə görə, rus qoşunları Xəzəryanı Azərbaycan torpaqlarını (Dərbənd, Bakı, Salyan) tərk ediblər. Bunun müqabilində Səfəvi dövləti rus tacirlərinə güzəştli ticarət şəraiti yaratmaq, Osmanlı ilə müharibədə Rusiyaya yardım etmək barədə öhdəlik götürüb.

### 229 il əvvəl...



**12 mart 1794-cü ildə** Polşada Tadeuş Kostyuşkonun başçılığı altında Rusiya və Prussiya (alman) müstəmləkəçiliyinə qarşı üsyan başlayıb. Aleksandr Suvorovun komandanlıq etdiyi rus qoşunları üsyanı yatırıb. Bundan sonra Rusiya və Prussiya Polşanı 3-cü dəfə (tamamilə) bölüşdürüblər.

### 150 il əvvəl...

**10 mart 1873-cü ildə** Bakıda maarifçi Həsən bəy Zərdabinin təşəbbüsü, dramaturq Nəcəf bəy Vəzirov, aktyor Əsgər ağa Adıgözəlov (Gorani) və Realnı məktəbin şagirdlərinin iştirakı ilə M.F.Axundzadənin “Lənkəran xanının vəziri” komediyası səhnələşdirilib. Bununla Azərbaycan peşəkar milli teatrının əsası qoyulub.

### 113 il əvvəl...

**8 mart 1910-cu ildə** Kopenhagendə (Danimarka) sosialist qadınların beynəlxalq konfransında Klara Setkinin təklifi ilə 8 martın qadınların həmrəyliyi günü kimi qeyd edilməsi qərara alınıb. İlk dəfə 1911-ci ildə Almaniya, Avstriya, İsveçrə, Danimarkada, iki il sonra Rusiyada qeyd olunub. 1966-cı ildə 8 mart SSRİ-də istirahət günü elan edilib. 1977-ci ildə BMT tərəfindən beynəlxalq günlər sırasına daxil edilib.

### 103 il əvvəl...

**10 mart 1920-cü ildə** Azərbaycan Qızıl Aypara Cəmiyyəti təsis edilib. Prezident İlham Əliyevin 7 aprel 2008-ci il tarixli sərəncamı ilə 10 mart Azərbaycanda “Qızıl Aypara Günü” kimi qeyd olunur.

### 101 il əvvəl...

**12 mart 1922-ci ildə** bolşevik Rusiyasının təşviqi ilə üç Cənubi Qafqaz respublikasının (Azərbaycan, Gürcüstan, Ermənistan) ittifaqı – Zaqafqaziya Sovet Sosialist Respublikaları Federativ İttifaqı yaradılıb.

### 75 il əvvəl...



**10 mart 1948-ci ildə** SSRİ Nazirlər Soveti Ermənistandakı azərbaycanlı əhalinin Azərbaycana deportasiyası haqqında ikinci qərar qəbul edib. Bununla bağlı ilk qərar 1947-ci il dekabrın 23-də verilmişdi. Qərara görə, azərbaycanlı kolxozçuların boşaltdığı ərazilərə xaricdən ermənilər köçürülməli idilər. Azərbaycanın rəhbəri M.Bağırovun Stalinə müraciətindən sonra qərarın sərt şərtləri qismən yumşaldılmışdı. Qərarların təşəbbüskarı SSRİ Nazirlər Soveti sədrinin müavini A.Mikoyan idi.

### 31 il əvvəl...

**12 mart 1992-ci ildə** Qazax rayonunun Aşağı Əskipara, Ağdərə rayonunun Sırxavənd, Qaraşlar, Başirlər, Baş Güneypəyə, Orta Güneypəyə, Xatınbəyli, Manikli kəndləri erməni silahlı qüvvələri tərəfindən işğal edilib. 2020-ci ilin 44 günlük müharibəsindən sonra Ağdərə rayonunun kəndləri Rusiya sülhməramlı kontingentinin müvəqqəti nəzarətindədir.

**Hazırladı: V.Orxan**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

“Mədəniyyət” qəzetinin kompüter mərkəzində səhifələnib,
“Azərbaycan“ nəşriyyatında çap olunub.
**Tiraj:** 5050. **Sifariş:** 675
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641